www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 24-26 avqust 2019-cu il Şənbə № 175 (7345) Qiyməti 60 qəpik

**Xəbər**

## Bərdədə faciə: qonşu oğlanla qız intihar etdi

yazısı səh.14-də

**Gündəm**

### Qarabağ danışıqlarında sükut nə vaxt pozulacaq?



Hərb variantı Bakının masası üzərində

yazısı səh.11-də

### Sığorta eksperti yanan taxta bazarı haqda: "Belə yerlərin malları sığortalanmır, çünki..."

yazısı səh.10-da

### Hərbi aviasiyamız Cənubi Qafqazda birinci yerdə - ekspert deyir ki...

yazısı səh.9-da

*Sülhəddin Əkbər:*

### "QRU" ilə məxfi əməkdaşlıq etmiş 200-dən çox adam üzə çıxardıq"

yazısı səh.7-də

### Azərbaycana qaçan erməni əsgərin qardaşı: "Zabitlərlə problemi olub..."

yazısı səh.11-də

### Kiminə para, kiminə bəla gətirən küçə ticarəti - SOS

yazısı səh.10-da

### Azərbaycan nə zaman özünü buğda ilə tam təmin edəcək? - Rəsmi

yazısı səh.4-də

### Pediatr valideynlərə səsləndi: "Dərslər başlamadan bunları edin!.."

yazısı səh.2-də

### Bakıda oğlan uşağına qarşı iyrənc hərəkət edən şəxsə ağır cəza

yazısı səh.14-də

### Azərbaycandan Şarm əl Şeyxə gedənlərin sayı kəskin artıb

yazısı səh.13-də

### Fast food yeməkləri - ömrümüzü qısaldan ləzzət...

yazısı səh.15-də

# PAŞİNYAN ÜÇÜN SONUN ƏVVƏLİ GÖRÜNDÜ - GERİSAYIM

Ermənistan mediası "xalq baş naziri"nin xalqdan uzaq düşdüyünü yazır; "məxməri" baş nazirin başı dərddə...




yazısı səh.8-də

## Vergi cinayətləri törədən vəzifəlilər - İqbal Məmmədov tək deyil...

Ekspertlər xəbərdarlıq edir: "Məmurla biznes bir-birindən ayrılmayınca "Relaks"dakı hadisələr təkrarlanacaq..."

yazısı səh.5-də



*Qabil Hüseynli:*

### "Mənə hücum edən bu adamlar niyə bir dəfə qapımızı açmadılar?"

yazısı səh.3-də



### Siyasətçilər Şeyxin yubileyini təbrik etdilər

yazısı səh.6-da



*Fikrət Qoca:*

### "Elə bilirəm, bir az da yaşasam, öləndə ağlayanım olmayacaq"

yazısı səh.12-də

YENİ MÜSAVAT
N 175 (7345) 24 avqust 2019



## Bu ölkədə dava salan azərbaycanlılar deport olunur

**Avqustun 20-də Almaniyanın Deggendorf şəhərində qaçqınların məskunlaşdığı lagerdə azərbaycanlılarla afrikalılar arasında baş verən kütləvi dava ilə bağlı cinayət işi başlanılıb (Axar.az). Bu barədə Almaniyada yaşayan hüquq müdafiəçisi Əlövsət Əliyev məlumat verib.**

Ə.Əliyev kütləvi davada iştirak edən bir neçə sığınacaq tələbi olan şəxsin deportasiyasının planlaşdırıldığını bildirib. Həmin şəxslərin sığınacaq istəyi ilə bağlı müraciətlərinin təcilli araşdırılmasına başlanılıb. Bu barədə Bavariyanın Daxili İşlər Nazirliyinin cümə axşamı Münhendə mətbuata verdiyi açıqlamada bildirilib.

"Hadisədə təqsiri olanlar qanunun aliliyinin tam ciddiliyi ilə məsuliyyətə cəlb olunacaqlar", - deyə daxili işlər naziri Yoahim Herrmann (CSU) bildirib. O, səlahiyyətli orqanları günahkarların təcili olaraq deportasiya edilməsinə çağırıb. Miqrasiya və Qaçqınlar üzrə Federal İdarədə cinayətə meyilli sığınacaq axtaranlar və onların geri qaytarılmasını qiymətləndirən xüsusi işçi qrup yaradılıb.

Qeyd edək ki, avqustun 20-də Nigeriya və Azərbaycandan olan 30-a yaxın sığınacaq axtaran şəxs arasında kütləvi dava baş verib. Uzun müddət davam edən əlbəyaxa davada hər iki tərəfdən xəsarət alanlar olub. Binaya ciddi ziyan dəyib. Polisin məlumatına görə, üç mühafizəçi və iki polis daxil olmaqla ən azı 10 nəfər yaralanıb.

Yalnız bölgədəki polis idarəsi əməkdaşlarının və federal təhlükəsizlik xidməti polisinin müdaxiləsindən sonra vəziyyəti sakitləşdirmək mümkün olub. Prokurorluğun məlumatına görə, 8 şübhəli şəxs müvəqqəti həbs olunub. Bir nigeriyalı və iki azərbaycanlı haqqında həbs qətimkan tədbiri seçilib. Digər 5 sığınacaq axtaran şəxs sərbəst buraxılıb. Asayişin pozulmasına və vəzifəli şəxslərə qarşı müqavimət və hücum faktına görə cinayət işi başlanılıb və araşdırma aparılır.

Deggendorfdakı düşərgədə bu, ilk belə hadisə deyil. Ötən il sığınacaq axtaran 29 yaşlı şəxs oraya deportasiya üçün gələn məmurlara və polislərə hücum etmişdi.

## Bulvarda özünü dənizə atan gənc xilas edildi

**Vətəndaşlar Dənizkənarı Milli Parkda intihara cəhd edən 18 yaşlı gənci xilas ediblər. Bu barədə oxu.az-a Səbail Rayon Polis İdarəsindən məlumat veriblər. Belə ki, saat 23:55 radələrində bulvarda istirahət edən insanlar bir gəncin intihar etmək üçün özünü dənizə atdığını görüblər.**

Xoşbəxtlikdən onu xilas etmək və dənizdən çıxarmaq mümkün olub. Canına qəsd etməyə çalışanın Abşeron rayon sakini İdris Elman oğlu Safquliyev olduğu bildirilir.

Hazırda onu intihara cəhdə sövq edən səbəb araşdırılır.

## Hacıqabulda yol qəzası - 8 yaralı

**Hacıqabul rayonunda baş verən yol-nəqliyyat hadisəsi ilə əlaqədar Şirvan Mərkəzi Rayon Xəstəxanasına müxtəlif dərəcəli xəsarətlərlə 8 nəfər müraciət edib. Bu barədə Trend-ə Səhiyyə Nazirliyindən məlumat verilib.**

Məlumatda bildirilir ki, müraciət edən şəxslərdən 5 nəfəri qadın (62, 52, 36, 20, 17 yaşlı), 3-ü isə kişidir (43, 47 və 14 yaşlı). Yaralılardan 6-sının xəsarətləri yüngül olduğundan gün ərzində ambulator müalicəyə buraxılacaqları gözlənilir. Digər iki nəfərin 62 yaşlı qadın və 43 yaşlı kişinin müalicələri travmatologiya şöbəsində davam edir. Vəziyyətləri orta-ağır stabil qiymətləndirilir.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**

# Pediatr valideynlərə səsləndi: "Dərslər başlamadan bunları edin!.."

**"Bu il məktəbə gedəcək 6 yaşlıları əvvəlcədən psixoloji baxımdan məktəbə hazırlamaq lazımdır. Yoxsa sonra uşaq əziyyət çəkir". Axar.az xəbər verir ki, bu fikirləri uşaq həkimi, pediatr Vaqif Qarayev bildirib.**

Həkim qeyd edib ki, bəzi uşaqların dərsə gedərkən yuxudan dura bilməməsinin, uzun müddət dərsə gedərkən ağlamasının səbəbi psixoloji olaraq bu prosesə hazır olmamasından irəli gəlir: "Xüsusilə bağçaya və məktəbəqədər hazırlığa getməyən uşaqlarda məktəb haqqında təəssürat oyatmaq lazımdır. 6 yaşına qədər ana ilə qalmağa öyrəşmiş uşaq birdən-birə məktəbə gedəndə uyğunlaşmaq çətin olur və uzun zaman alır. Uşağın əvvəlcədən məktəb haqqında təsəvvürü olmalıdır. Yoxsa uzun müddət adaptasiya ola bilmirlər. Bu, uşağın zehni inkişafına da təsir edir".



**Həkim əlavə edib ki, uşağın məktəbə getməzdən əvvəl tibbi müayinədən keçirilməsi də məsləhətdir:** "Uşağın görmə, eşitmə qabiliyyəti yoxlanılmalıdır. Qamət pozğunluğu varsa, aşkar olunmalıdır. Bəzən olur ki, analar uşağın zəif gördüyünü hiss edə bilmir və uşaq uzun müddət əziyyət çəkir. Bu, həmin zəif gözün daha da zəifləməsinə səbəb olur. Tibbi müayinə belə məqamları vaxtında müəyyən etsə, uşaq daha az əziyyət çəkər və problem də zamanla həll olar".

**Son olaraq həkim bildirib ki, uşaqların yeni dərs ili öncəsi ümumi qan, nəcisdə qurd yumurtaları analizləri verməsi faydalıdır.**



## Bu gün hava meteohəssas insanlar üçün əlverişsiz olacaq

**Avqustun 24-də ölkə ərazisində gözlənilən hava şəraiti ilə bağlı məlumat açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən Musavat.com-a verilən məlumata görə, sabah Bakıda və Abşeron yarımadasında hava əsasən günəşli olacaq. Şimal küləyi gündüz mülayim cənub-şərq küləyi ilə əvəz olunacaq. Havanın temperaturu Abşeron yarımadasında gecə 22-25, gündüz 33-36, Bakıda gecə 22-24, gündüz 33-35 dərəcə isti təşkil edəcək.**

Atmosfer təzyiqi normadan aşağı 758 mm civə sütunu, nisbi rütubət gecə 60-70, gündüz 25-30 faiz olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu şimal çimərliklərində (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 26-27, cənub çimərliklərində (Türkan, Hövsan, Sahil, Şıx) 27-28 dərəcə isti təşkil edəcək.

Azərbaycanın rayonlarında da bu gün hava əsasən yağmursuz keçəcək, lakin axşam bəzi qərb rayonlarında şimşək çaxacağı, qısamüddətli yağış yağacağı ehtimalı var. Səhər bəzi yerlərdə zəif duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 18-23, gündüz 35-40, dağlarda gecə 13-18, gündüz 23-28 dərəcə isti təşkil edəcək.

**Tibbi-meteoroloji proqnoza gəlincə, avqustun 24-25-də Bakıda və Abşeron yarımadasında zəif küləyin üstünlüyü fonunda günorta saatlarında isti temperatur diskomfortu gözlənilir ki, bu da meteohəssas insanlar üçün əlverişsizdir.**



## Bakı-Sabunçu dəmiryol marşrutu dəyişdirilir

**Bakı-Sabunçu-Bakı qatarı Bakıxanov dayanacağına qədər hərəkət edəcək. Bu barədə virtualaz.org-a Azərbaycan Dəmir Yolları Qapalı Səhmdar Cəmiyyətindən (QSC) məlumat veriblər.**

Qeyd olunur ki, dəmir yolu stansiyasının ərazisində avtomobil keçidi inşa olunur: "26 avqust 2019-cu ildən 15 sentyabr 2019-cu ilədək Sabunçu dəmir yolu stansiyasının ərazisində avtomobil keçidində tunelin inşası ilə əlaqədar olaraq, Bakı-Sabunçu-Bakı elektrik qatarları Bakıxanov dayanacağına qədər hərəkət edəcək".

**QSC-dən o da bildirilib ki, inşa işləri yekunlaşdıqda əlavə məlumat veriləcək**: "Bakı-Bakıxanov-Bakı istiqamətində elektrik qatarlarının hərəkət qrafikində dəyişiklik olmayacaq. Tunelin inşası başa çatanda, Bakı-Sabunçu-Bakı istiqamətində elektrik qatarlarının Sabunçu stansiyasınadək hərəkətinin tam bərpası haqqında əlavə məlumat veriləcək".



## Ekoloq: "Xəzərdə suyun azalması iqtisadi proseslərlə bağlıdır"

**Xəzər dənizində suyun sahildən geri çəkilməsi halları müşahidə olunur. Bu barədə Oxu.Az-a danışan ekoloq Telman Zeynalov bildirib ki, Xəzərdə suyun səviyyəsinin azalmasının səbəblərindən biri də quraqlıqdır. Onun sözlərinə görə, Xəzərdə suyun çəkilməsi həm təbii, həm də iqtisadi proseslərlə bağlıdır:**

"Yağıntıların miqdarı azalır. Bununla yanaşı, Rusiyada Volqa çayında tikilən hidrotexniki qurğular da burada rol oynayır. Bu qurğular enerjinin çox əldə olunması üçün çaydakı suyu çəkir. Buna görə də kanallara su az buraxılır. Bilirik ki, Volqa Xəzərə tökülür. Mən daha çox iqtisadi faktor üzərində dayanıram".

Ekspertin fikrincə, digər tərəfdən, Xəzərə axan çayların istiqamətinin başqa yerə yönləndirilməsi də problemlər yaradır. Buna görə də çaylardan Xəzərə az su axır.

Qeyd edək ki, bu il iyunun 26-da Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ekoloji siyasət şöbəsinin müdiri Rasim Səttarzadə demişdi ki, monitorinqlərin nəticələrinə və aparılmış təhlillərə görə hazırda səviyyə bir metrdən çox aşağı düşüb. Rəsmi məlumatlara görə, 1977-ci ildə dənizin səviyyəsi XX əsrdə müşahidə olunmuş ən aşağı həddə qədər azalıb. Sonradan qısa dövr ərzində (1977-1995-ci illər) 2,5 metr artıb və sonrakı illərdə yenidən azalma müşahidə olunmağa başlayıb.

Dənizin qidalanmasında Volqa çayının xüsusi əhəmiyyəti var. Bu çay vasitəsilə dənizə ümumi illik axar 80 faiz, digər çaylar - Kür 6 faiz, Ural 5 faiz, Terek, Sulaq və Samur birlikdə 4,5 faiz, İran ərazisindən Səfidrud, Şirrud, Gürgan və s. başqa çaylar 4-4,5 faiz təşkil edir.

Müşahidələr göstərir ki, çay axınları orta qiymətə nisbətən böyük intervalda dəyişikliklərə uğrayırlar. Buna səbəb isə dənizin çox geniş sutoplama hövzəsində (şimal yarımkürəsinin təxminən 20 faiz ərazisi) baş verən hidrometeoroloji proseslərdir.

**Tarixi dövr ərzində (son 3500 il) dənizin səviyyəsinin dəyişməsi 15 m, son 200 ildə 3.5 m təşkil edib. Xəzər dənizinin səviyyəsində fəsli dəyişmələr müşahidə olunur ki, o da 30-40 sm intervalında dəyişir. Səviyyə özünün ən yüksək qiymətini iyun-avqust aylarında, ən aşağı qiymətini isə dekabr-fevral aylarında alır.**

**Avqustun 23-də mərhum pilot Rəşad Atakişiyevin anım mərasimi keçirilib. Mərasim pilotun yaşadığı evin həyətində baş tutub. "Yeni Müsavat" Media Qrupunun əməkdaşları yas mərasimində iştirak ediblər.**




**Mərhum pilotun qayınatası, professor Qabil Hüseynli** "Yeni Müsavat"a açıqlamasında həm Müdafiə Nazirliyinin qəza ilə bağlı yaydığı bəyanatı şərh edib, həm də hüzr mərasiminə siyasi qüvvələrin gəlməməsi ilə bağlı etdiyi çağırışa etirazları şərh edib.

Q.Hüseynli bildirib ki, Müdafiə Nazirliyinin bəyanatı qara qutunun deşifrə olunması nəticəsində əldə edilən materiallar əsasında hazırlanıb. Politoloq bu səbəbdən yayılan bəyanata hansısa irad, etiraz və əlavəsinin olmadığını deyib: "Onlar qara qutunu, təyyarənin texniki göstəricilərini analiz edəndən sonra bu qənaətə gəliblər. Qaldı ki, başqalarının söylədiyi əks versiyalara, bu da onların hüququdur. Sadəcə olaraq müzakirələr həqiqətin tam açılmasına bəlkə də kömək etdi. Hər halda mən Müdafiə Nazirliyinin yaydığı bəyanatı qəbul edirəm".

# "Mənə hücum edənlər bu müddətdə niyə bir dəfə qapımızı açmadılar?"

## Qabil Hüseynli kürəkəni, pilot Rəşad Atakişiyevin həlak olmasından, Müdafiə Nazirliyinin qəzanın səbəbləri ilə bağlı açıqlamasından və onun üzərinə təşkil olunan hücumlardan danışdı








Politoloq dəfn mərasimindən bir gün öncə siyasi qüvvələrə tədbirə gəlməmələri ilə bağlı etdiyi müraciəti də şərh edib. "Mən onlara "gəlməyin" söyləmədim" deyən müsahibimizə görə, bu açıqlamada konkret müxalifət nəzərdə tutulmayıb: "Mən orda "bəzi siyasi partiyalar" kəlməsini işlətdim. Həm də dəfn mərasimini nəzərdə tutaraq onu təşkil etmək, onu normal şəkildə həyata keçirmək üçün bizə şərait yaradılması naminə bunu söyləmişdim. Üstəlik onu da əlavə etmişdim ki - amma bu hissə nəşrə getməmişdi - "yas mərasimləri Heydər məscidində davam edəcək. Buyurub ora gəlsəniz daha yaxşı olar". Amma bu dediklərimi çözələdilər və müxtəlif interpretasiyalarda bu açıqlamanı Qabil Hüseynlinin şəhidimizin yas mərasimində iştiraka icazə verməməsi kimi qələmə verdilər. Əvvəla, "icazə vermirəm" ifadəsini işlətməmişəm. Xahiş etmişəm ki, əgər 1-ci gün dəfn mərasiminə siyasi maraqlar baxımdan gələcəksinizsə, gəlməyin. Orda siyasi şüarlar səsləndirəcəksinizsə, gəlməyin. Amma mən heç kimə qadağan etməmişəm ki, istər dəfn mərasimində, istərsə sonrakı tədbirlərdə iştirak etməsinlər".

Q.Hüseynli bildirib ki, onun çağırışını olduğu kimi qəbul edən siyasətçilər də olub. Müsahibimizin sözlərinə görə, Heydər məscidində keçirilən yas mərasiminə müxalifət partiya liderlərindən Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu və onun partiyadaşları, eləcə də millət vəkili Fazil Mustafa iştirak ediblər: "Kimlər ki, bu məsələdən uzaqgedən nəticələr çıxarıblar, bu, onların öz təxəyyülünün məhsuludur. Pilotun təyyarəsinin qəzaya düşməsindən bir ay sonra onun meyiti tapılıb. Bu müddətdə bir kəs bizə telefon açıb nə ürək-dirək verdi, nə də dərdimizi bölüşdü. Onun həyat yoldaşı (Rəşad Atakişiyevin xanımı Qabil Hüseynlinin qızıdır-red.) bu hadisələrdən sonra ciddi psixi travma alıb. Onun təskinliyə böyük ehtiyacı vardı. Gültəkin Hacıbəyli və başqaları bir neçə xanımla birgə gəlib, Rəşadın qapısını açsaydılar, onun xanımına təskinlik versəydilər, bu, ümumi işə daha xeyirli olardı. Müəyyən küskünlüklər ortaya çıxmazdı. Biz ailəmizdə baş verən faciəyə qarşı o dövrdə Əli Kərimlinin status yazdığının şahidi olduq. Amma bütövlükdə bu hadisə ilə bağlı sıxıntıya məruz qalmış, dərin böhran keçirən ailəyə onlar tərəfindən hər hansı bir insani qayğının şahidi olmadıq".

**Q.Hüseynli eyni zamanda vurğulayıb ki, məlum çağırışı öz təşəbbüsü ilə edib. Sitat**: "Mənə məlumat çatdı ki, bəzi siyasi qruplar dəfndə iştirak etməklə bağlı öz aralarında müzakirə aparıblar. Mən uzun müddət müxalifətdə olmuş adam kimi bilirəm ki, bu cür tədbirlərdə bəzi siyasi qrupların iştirakı nəylə nəticələnər. Ona görə də çağırış etməyi məqsədə uyğun bildim. Biz ailə olaraq ağır bir faciənin ağrısını çəkməkdəyik. Yaxınımızın dəfnində istəmədik ki, qarşıdurma, xoşagəlməz olaylar yaşansın. Bir daha təkrar edirəm, Rəşadın cəsədi 1 aya yaxın müddətdə axtarıldı. Bu gün məni ittiham edən bəzi siyasi partiya nümayəndələri niyə o müddətdə bizimlə maraqlanmadılar?!. Deməli, bu adamların məqsədi başqa olub. Bizim dərdimizə şərik çıxmaq, acımızı bölüşmək yox".

❑ **Hazırladı: SEVİNC**
**Foto: ELÇİN ƏKBƏROV**
**"Yeni Müsavat"**

# İsgəndər Həmidov xaricə gedir - AXH payızda qurultay keçirəcək

## Ağasif Şakiroğlu: "AXH bir tək İsgəndər Həmidovdan ibarət deyil..."



**Sabiq daxili işlər naziri, iki hissəyə parçalanan Azərbaycan Xalq Hərəkatındakı (AXH) qanadlardan birinin lideri İsgəndər Həmidov səhhəti ilə əlaqədar hələ də üzə çıxmır. Onunla bağlı məlumat almaq da bir qədər çətinləşib.**

Bu günlərdə isə sabiq nazirin lideri olduğu hərəkat Qurultaya Hazırlıq üzrə Təşkilat Komitəsi yaradıb və onu komitəyə sədr seçib. Bu isə daha çox o anlama gəlir ki, İ.Həmidov AXH-nin qurultayında sədr seçiləcək. Çünki siyasi qurumlarda bu tipli komitələr yaradılanda bəzi istisnalar olmaqla, əksərən komitə sədrləri qurum rəhbəri olurlar.

İ.Həmidovun son durumu, AXH-nin qurultayla bağlı hazırlıqları ilə maraqlandıq. Hərəkatın idarə heyətinin üzvü, Gələcək Azərbaycan Partiyasının sədri Ağasif Şakiroğlu "Yeni Müsavat"a bunları dedi: "İsgəndər Həmidov hazırda müalicə almaqdadır və əməliyyat olmaq üçün bildiyim qədəri ilə yaxın günlərdə yenidən xaricə yollanacaq. Hazırda Bakıdadır və xaricə yola düşməyə hazırlaşır. AXH bir tək İsgəndər Həmidovdan ibarət deyil. Orada kifayət qədər ictimai-siyasi xadimlər birləşib ki, bunları da hər kəs kifayət qədər tanıyır. AXH xalqın hərəkatıdır. Yaşayır və yaşayacaq! İsgəndər Həmidovun təşkilat komitəsinə sədr seçilməsinə gəldikdə isə, bu Təşkilat Komitəsinin üzvlərinin qərarıdır. Burada da qəbahət heç nə yoxdur. Kimin sədr olacağına isə əlbəttə ki, qurultay qərar verəcək. Hesab edirəm ki, münəccimlik edib də vaxtsız nəyisə söyləmək çox tezdir. Hazırda qurultaya hazırlıq işləri çox sürətlə gedir. Bildiyiniz kimi, ALDP sədri Fuad Əliyev Təşkilat Komitəsinin sədrinin birinci müavini, digər 3 nəfər (Azad Azərbaycan Partiyasının sədri Həsən Həsənov, MHP sədri Valeh İbadov və ictimai-siyasi fəal Salman İmanlı) isə müavin seçiliblər. Sədr olmadığı müddətdə birinci müavin olaraq sədrin səlahiyyətlərini ALDP sədri daşımış olur. Biz hazırda vahid komanda olaraq çalışırıq və əminik ki, qurultayımız möhtəşəm olacaq. AXH tam demokratik bir qurumdur. Qurultayda hələ bir çox məsələlər müzakirə ediləcək. Qurultaya hazırlıq üzrə Təşkilat Komitəsinin üzvü və ya sədri olmaq hələ o demək deyil ki, qurultayda kimsə sədr seçiləcək. Bəlkə qurultay kollektiv idarəetmə modelini məqbul bildi. Bəlkə sədr aparatının olması qərarını vermiş oldu. Yəni bütün bu məsələlərlə bağlı demokratik prinsiplər əsasında qərarlar qəbul ediləcək. Əgər qurultay AXH-nin sədr aparatı olan bir hərəkat olmasını istəyəcəksə, o zaman hərənin öz namizədi ola bilər. Qurultay üzvlərindən hər bir şəxs də namizədliyini irəli sürə bilər. Yəni burada məhdudlaşdırıcı hal mövcud deyil".

**A.Şakiroğlu qurultayın təxmini vaxtını da açıqladı:** "Qurultayın dəqiq tarixi elan edilməsə də, payızda keçirilməsinə rəsmi qərar verilib. Hazırlıq işləri bitdikdən sonra Təşkilat Komitəsi qurultayın gününü və yerini müəyyən edəcək. Azərbaycan siyasi sistemində olan bütün siyasi qurumlarda vəziyyət eynidir. Düşünürəm ki, bu yay fəsli ilə bağlıdır. Hətta diqqət etsəniz görərsiniz ki, internet TV-lərin verilişlərinə olan baxış sayında da bir durğunluq var. Bu da fəsillə əlaqədardır. Bir tək onu deyə bilərəm ki, payız çox qızğın olacaq".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 175(7345) 24 avqust 2019

# Azərbaycan nə zaman özünü buğda ilə tam təmin edəcək?

## KTN rəsmisi: "Üç ildə buğda idxalı 1,5 milyon tondan 1 milyon tona düşüb"

**Bu ilin birinci yarısında Azərbaycan Qazaxıstandan 224,7 min ton buğda alıb. Minval.az-ın Qazaxıstan KİV-lərinə istinadən yaydığı məlumata görə, bununla da Azərbaycan Qazaxıstanın buğda ixracatında 3-cü yerə çıxıb. Dövlət Gömrük Komitəsinin məlumatına görə, bu ilin birinci yarısında Azərbaycan ümumilikdə xaricdən 130,1 milyon dollarlıq 576,5 min ton buğda idxal edib. Beləliklə də, Qazaxıstandan idxal Azərbaycanın ümumi idxalının 39 faizini təşkil edib.**

Qeyd edək ki, son illərdə Azərbaycanın Qazaxıstandan buğda idxalında ciddi azalma müşahidə olunur. 2012-2013-cü illərədək ölkənin buğda idxalında Qazaxıstanın payı 70 faizdən yuxarı olub. Lakin ötən illər ərzində Azərbaycana buğda idxalında ağırlıq Qazaxıstandan Rusiyaya keçib. Belə ki, Dövlət Statistika Komitəsinin məlumatına görə, 2013-cü ildə Azərbaycan Qazaxıstandan 233,6 milyon dollarlıq buğda idxal edib. 2017-ci ildə isə idxal 20 dəfədən də çox azalaraq cəmi 11,6 milyon dollar təşkil edib. Həcm ifadəsində azalma 849 min tondan 62,3 min tona qədər olub.

Rusiyadan isə 2013-cü ildə 557,4 min ton olan idxal 2016-cı ildə 1,5 milyon tona çatıb. Bu prosesi şirkətlər Rusiyada qiymətin daha ucuz olması ilə əsaslandırırlar. Belə ki, məsələn, 2016-ci ildə Rusiyadan buğdanın kiloqramı 18 qəpiyə, Qazaxıstandan isə 20 qəpiyə alınıb.

Ötən il Qazaxıstandan Azərbaycana 50 milyon 823,76 min dollar dəyərində 269,4 min ton yumşaq buğda və meslin, digərləri idxal olunub. Bu məhsulun Rusiyadan idxalı isə ötən il 776 min 587,2 ton (146 milyon 467,25 min dollar) təşkil edib.

Dövlət Statistika Komitəsinin açıqladığı ərzaq balansından aydın olur ki, Azərbaycanın buğdaya olan illik tələbatı 4 milyon ton civarındadır. Bunun 2,1 milyon tonu un və yarma istehsalında, 500 min tonu mal-qara və quş yemi kimi, 35-37 min tonu qarışıq yem istehsalında, 147 min tonu toxum üçün və sair istifadə edilir.




Ölkənin un və yarma istehsalı üçün yararlı buğdaya olan ehtiyacı əsas etibarilə idxal hesabına təmin olunur. Belə ki, Dövlət Gömrük Komitəsinin statistikasına görə, bu ilin 7 ayında Azərbaycana 145 milyon 789.02 min dollar dəyərində 653 min 228.08 ton buğda idxal olunub. Ötən ilin eyni dövründə idxal 106 milyon 45,92 min dollar dəyərində 598 min 424.67 ton olub. Lakin maraqlıdır ki, illik hesabıyla götürdükdə, son 3 ildə buğda idxalının azaldığı görünür. Belə ki, 2016-cı ildə Azərbaycan xaricdən 1 milyon 599 min 599 ton, 2017-ci ildə 1 milyon 274 min 434.18 ton, 2018-ci ildə isə 1 milyon 80 905.51 ton buğda alıb. İllik azalma 200 min ton civarındadır.

Onu da bildirək ki, ərzaq təhlükəsizliyi baxımından hər bir ölkə buğda ilə təminatı yerli istehsal hesabına həyata keçirməyə çalışır. Azərbaycanda da uzun illərdir keyfiyyətli buğda istehsalının təmin olunması istiqamətində addımlar atılsa da, bu sahədə irəliləyişi ciddi uğur hesab etmək olmaz. Hələ də ölkədə istehsal olunan buğdanın əhəmiyyətli hissəsi un istehsalında istifadəyə yararsızdır.

Məlumat üçün qeyd edək ki, yerli buğda istehsalı 2018-ci ildə 1 milyon 991 min 683 ton təşkil edib. 2016-2017-ci illərdə isə istehsal 1,8 milyon civarında olub. Bu il 1 milyon 12 min hektarda taxıl əkini həyata keçirilib. Bunun 670 min hektarını buğda, 342 min hektarını isə arpa əkini təşkil edib. Bu əkin sahələrindən ümumilikdə 3,2 milyon ton arpa və buğda əldə edilib.

**Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Tədqiqatlar Mərkəzinin direktoru Firdovsi Fikrətzadə**nin dediyinə görə, hökumət idxalın yerli istehsal məhsulu ilə əvəz olunması üçün ciddi tədbirlər həyata keçirir: "Əvvəla, qeyd edim ki, 2016-cı ildən etibarən buğda idxalında davamlı azalma var: 1,5 milyon tondan 1 milyon tona düşüb. Bizim gözləntimiz budur ki, bu il idxal ən pis halda 2018-ci il səviyyəsində qalacaq, yaxşı halda isə azalma davam edəcək. Bu il yaxşı əlamətdir ki, buğda emalı müəssisələri yerli məhsulun alışını xeyli artırdılar. Nəticədə əvvəllər məhsul yığılandan 2 ay sonra formalaşan qiymətlər bu il elə yığım vaxtı qeydə alındı. Yəni əvvəllər məhsul yığımı vaxtı qiymət 20-25 qəpik olurdu, 2 aydan sonra 35-40 qəpiyə qalxırdı, bu il isə elə yığım vaxtı qiymət 30-35 qəpiyə yüksəldi. Bu, istehsalçılar üçün çox böyük stimuldur ki, gələn il aqrotexniki qulluq səviyyəsini yüksəltməklə məhsuldarlığı artırsınlar".

Mərkəz direktorunun sözlərinə görə, bu il buğda istehsalında 7 faizə yaxın artım var - 2,2 milyon tona çatıb: "Keyfiyyətin getdikcə yüksəldilməsi imkan verəcək ki, ərzaq buğdasına olan tələbatın getdikcə daha çox hissəsi yerli istehsal hesabına təmin olunsun. Gözləntilərimizə görə, təxminən 5 ildən sonra idxal tam məhdudlaşacaq. Bunun üçün bir sıra mühüm addımlar atılır. Məsələn, zərərvericilərə, xəstəliklərə qarşı mübarizə buğdanın keyfiyyətinə birbaşa təsir edən amillərdəndir. Artıq dövlət bunun üçün zəruri olan pestisidlərlə təchizatda da fermerlərə dəstək verməyə başlayıb. Bu isə zərərvericilərə, xəstəliklərə qarşı daha effektiv mübarizə aparılmasını təmin edir. Nəticədə fermerlər daha keyfiyyətli məhsul əldə edə bilirlər. İkinci məsələ keyfiyyətli toxumdan istifadədir. Bizim bir çox fermerlərimiz toxum kimi öz becərdiyi məhsuldan istifadə edirlər. Bu isə həm keyfiyyəti, həm məhsuldarlığı aşağı salır. Gələn ildən tətbiq olunacaq susbsidiya mexanizmi fermerləri yüksək səviyyəli toxumlardan istifadəyə stimullaşdıracaq. Belə toxumla təchizatda da dövlət fermerlərə dəstək verəcək. Yəni dövlət keyfiyyətli buğda istehsalını artırmaq üçün kompleks dəstək tədbirləri həyata keçirir və artıq bu sahədə ciddi nəticələr əldə olunmaqdadır".

**❑ Dünya SAKİT, "Yeni Müsavat"**

# Trampdan immiqrasiyanı azaltmaq üçün daha bir addım

## Elxan Şahinoğlu: "Bu, məntiqsizdir, çünki Amerikanın özü immiqrantlar ölkəsidir..."

**ABŞ prezidenti administrasiyası doğulmaq hüququna görə vətəndaşlıq verilməsi qaydasını ləğv edə bilər. Prezident Donald Tramp hazırda qüvvədə olan "Vətəndaşlıq haqqında qanunu" "yaramaz" adlandırıb.**

"Biz bu məsələni ciddi şəkildə gözdən keçiririk. Sərhədi keçirsiz, uşağı doğursunuz... sonra təbrik edirəm, budur, uşaq artıq ABŞ vətəndaşıdır. Bu, tamamilə yolverilməzdir", - deyə Ağ Ev rəhbəri jurnalistlər qarşısında bəyan edib.

Qeyd olunur ki, hələ keçən il "Axios" saytına verdiyi müsahibədə Donald Tramp anadan olma hüququna görə bəxş edilən vətəndaşlığa son verəcəyini demişdi. Lakin hüquq ekspertləri belə bir addımın ABŞ konstitusiyasına zidd olduğunu bildirirlər. Belə ki, konstitusiyanın 14-cü düzəlişinə görə "Birləşmiş Ştatlarda doğulan və ya sonradan qəbul olunan şəxslər vətəndaş ola bilərlər".

Bu müddəaya əsaslanaraq ABŞ-da anadan olmuş insanlar, onların valideynlərinin vətəndaş olub-olmamasından, hətta ölkə ərazisində qanuni şəkildə qalıb-qalmamasından asılı olmayaraq vətəndaşlıq hüququnu əldə edirlər.

Qeyd edək ki, cari ilin 15 oktyabr tarixindən başlayaraq, özlərini təmin edə bilməyən şəxslər ABŞ-da daimi yaşayış və iş hüququ əldə edə bilməyəcək. Ağ Ev qeyd edib ki, yeniliklər ABŞ vergi ödəyiciləri və həqiqətən dövlət yardımına ehtiyacı olan ölkə vətəndaşlarını qoruyacaq.

2018-ci ilin oktyabrında da xəbər verilmişdi ki, prezident Tramp xarici ölkə vətəndaşlarının və mühacirlərin Amerika ərazisində doğulan uşaqlarına vətəndaşlıq verilməsi hüququnu ləğv etmək barədə fərman imzalamağı planlaşdırır. Həmin vaxt prezident açıqlamasında demişdi ki, "Biz dünyada yeganə dövlətik ki, istənilən insan bura gələ, uşaq doğa və doğduğu uşaq faktiki olaraq 85 il bütün imtiyazlarla ABŞ vətəndaşı ola bilər... Bu çox gülüncdür və buna son qoyulmalıdır", - deyə prezident vurğulayıb və qeyd edib ki, proses gedir və "bu, baş verəcək".

Qeyd edək ki, bir çox dövlətlərdə həmin ölkənin ərazisində doğulan uşaqlara avtomatik olaraq vətəndaşlıq verilir. Bu prosedurdan, o cümlədən Avropa-



nın bəzi ölkələrində, həmçinin Braziliya, Çili və Panamada istifadə olunur. Bununla belə, bir sıra Avropa dövlətlərində uşağın doğulması faktı ilə yanaşı, onun ölkə ərazisində müəyyən müddətdə yaşaması tələbi də mövcuddur.

Daha öncə də xəbər verilmişdi ki, ABŞ prezidenti 2020-ci il əhalinin siyahıyaalınma anketlərinə vətəndaşlıq sualının salınmasına prezident sərəncamı verilə biləcəyini deyib. "Biz prezident sərəncamı da daxil edilməklə, bir sıra variantlar üzərində çalışırıq", - deyə Tramp müxbirlərə bildirib. O, hazırkı anketlərdə olmasa da, gələcəkdə bu sualın anketlərə əlavə edilməsinin vacibliyini vurğulayıb.

"Yeni Müsavat" xatırladır ki, ABŞ vətəndaşlığı məsələsində Tramp administrasiyasının zaman-zaman pozitiv addımları da olub. 2018-ci ilin yanvarında Ağ Ev yetkinlik yaşına çatmadan öncə ABŞ-a qanunsuz mühacirət edən 1,8 milyon insana vətəndaşlıq almaq imkanı verəcək immiqrasiya barədə qanun layihəsinin güzəştli variantını Konqresə təqdim etmişdi.

Hesablamalara görə, əvvəllər DACA proqramı çərçivəsində ABŞ-da yaşayan 700 min mühacir, həmçinin proqramda iştirak etmək hüququndan istifadə etməyən 1,1 milyon insanın bu imkandan yararlana biləcəyi nəzərdə tutulmuşdu. Onlar ölkə qanunlarını pozmasalar, 10-12 ildən sonra ABŞ vətəndaşlığı alacaqdılar.

Tramp bu güzəştinə cavab olaraq, Meksika ilə sərhəddə tikiləcək səddin inşasına 25 milyard dollar ayrılmasını və immiqrasiya siyasətində nəzərəçarpacaq dəyişikliklər, xüsusən mühacir ailələri üçün dəstəyin ixtisarını və viza lotereyasının bəzi ölkələr üçün ləğvini tələb etmişdi. Prezident administrasiyasındakı mənbələr həmin vaxt bunu "səxavətli təklif" və demokratlarla respublikaçılar arasında sazişə nail olmaq üçün real imkan adlandırırlar.

Maraqlıdır, Tramp bu dəfə öz istəyini həyata keçirə biləcəkmi? Amerika cəmiyyətinin buna reaksiyası necə olacaq? Və milli ayrı-seçkilik xətti ABŞ prezidentinin fəaliyyətində niyə əhəmiyyətli xətt kimi görünür?

**Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, D.Tramp ümumən çox tərs prezidentdir. Onun sözlərinə görə, prezident hər dediyini etməyə çalışır. Bu, bəzən alınır, bəzənsə yox: "Hansısa ölkəyə sanksiya tətbiq etməsi, dialoqlara başlaması buna misaldır. Amma dediklərinin həyata keçməyəni də var. Bu yaxınlarda dövlətlərə yardımın dayandırılması ilə bağlı açıqlama vermişdi. Amma gələn son xəbərə görə, fikrindən vaz keçib. Çünki anladılar ki, biz bir çox ölkəyə yardımı dayandırsaq, dünyada Amerikanın aparıcı rolu azala bilər".

**E.Şahinoğlu bildirdi ki, vətəndaşlıq məsələsində sərgilədiyi mövqe də fərqli deyil. Politoloqun fikrincə, Tramp bunu gündəmə gətirsə də, məntiqlə uyuşmur:** "Çünki Amerikanın özü immiqrantlar ölkəsidir. Donald Trampın özü yarı şotland, yarı almandır. Aydın məsələdir ki, Amerika rezin deyil və bütün dünya gedib orda yerləşə bilməz. Amma Trampın bu dediklərini həyata keçirəcəyi inandırıcı deyil".

"Yeni Müsavat" xatırladır ki, ümumiyyətlə, ABŞ-da uşaq böyüdülməsi xərcləri olduqca yüksəkdir. Kənd Təsərrüfatı Nazirliyinin hesabatında 2013-cü ildə dünyaya gələn hər bir körpənin 18 yaşına çatdırılması üçün 240 min dollar tələb etdiyi bildirilir. Uşaqların ali təhsillə təmin edilməsi isə bu xərcləri iki dəfə artırır.

**❑ Sevinc TELMANQIZI, "Yeni Müsavat"**

# Vergi cinayətləri törədən vəzifəlilər - İqbal Məmmədov tək deyil...

**Ekspertlər xəbərdarlıq edir:** “Məmurla biznes bir-birindən ayrılmayınca ”Relaks"dakı hadisələr təkrarlanacaq...”

**Deputat İqbal Məmmədovun oğlu Mirhəmid Nərimanlının qohumları ilə birlikdı Lerikdəki “Relaks” İstirahət Mərkəzindəki özbaşınalığı, vergi işçilərini döyməsi hadisəsi digər ilginc cinayətləri ortaya çıxarıb. Məlum olub ki, deputata məxsus 14 hektarlıq İstirahət Mərkəzi ildə cəmi 972 manat vergi ödəyir. Bundan başqa “Azərişıq”a 30 min manat məbləğində borcu olub. Borc isə istirahət mərkəzinin məsul şəxslərinin indiyədək “Azərişıq”ın əməkdaşlarına sayğaca baxış keçirməyə icazə verməməsi nəticəsində yaranıb. Mirhəmid Nərimanlının bu dəfə vergi müfəttişlərinə yumruq atması atasının varidatı haqda da xeyli mübhəmləri hər kəsə çatdırdı. Bəlli oldu ki, vergi ödəməyən, işıq pulunu verməyən deputat İqbal Məmmədovun zavodları, restoranları, karxanaları və digər biznes strukturları da qanunları pozmaqla, vergidən yayınmaqla fəaliyyət göstərir.**



*Bəs onun vergi ödəməməsi deputatın cinayət məsuliyyətinə cəlb edilməsinə səbəb ola bilərmi?*

**İqtisadçı ekspert Natiq Cəfərli** deyir ki, “Relaks” İstirahət Mərkəzində baş verən məsələ ən ciddi şəkildə yoxlanılmalı, kimliyindən asılı olmayaraq hər kəs cəzaya çatdırılmalıdır: “Vergi yoxlamaları 3 ildən bir həyata keçirilir. Yəni 3 ildən bir obyektlərdə yoxlama aparılmalıdır. Bundan başqa kameral yoxlama da aparılır. Obyektlə bağlı şübhələr varsa, belə şübhələr yaranıbsa kameral yoxlama təyin olunur. Məsələn obyekt 1-ci rübdə verdiyi vergi 2-ci rübdə həddən artıq aşağı düşübsə, artıq suallar yaranır. Belə hallar olanda növbədənkənar yoxlamaların təyin olunması qanunda nəzərdə tutulur. Vergilər Nazirliyi fiziki və ya əsasən də hüquqi şəxslərlə bağlı şübhələr varsa, növbədən kənar yoxlamalar təyin etməlidir.

İkinci məsələ kassa aparatının dövriyyəsi ilə bağlıdır. Dövriyyədən vergi və yaxud əlavə dəyər vergisinə düşüb-düşməməsi ilə bağlı məlumatlar rəsmi dövriyyədən asılı olur. Kassa aparatında hansı dövriyyə görsənirsə, bu mütləq Vergilər Nazirliyi tərəfindən qeydə alınır. Azərbaycanda, əsasən də regionlarda ən böyük problemlərdən biri rəsmi dövriyyə ilə faktiki dövriyyə arasında böyük fərq var. Deputat, məmur obyektləri olduqda isə ümumiyyətlə kassa aparatlarından istifadə olunmur. Bu zaman da dövriyyə bilinmir. Dövriyyə bilinmirsə, gəliri düzgün hesablanmırsa, vergi də doğru-dürüst hesablanmır".

**İqtisadçı ekspert deyib ki, “Relaks”la bağlı absurd odur ki, obyektin həcmi, orada xidmət göstərən obyektlərin sayı, ora gələn qonaqların sayı, ümumilikdə bütün bunlar ödənməli vergilərin daha artıq olması haqda Vergilər Nazirliyi rəsmilərində şübhələr oyatmalı idi:** “İri, cənub zonasında adı çıxarmış obyekt vergi ödəyicisi kimi cüzi vergi ödəyirsə, bu əlbəttə ki, şübhə doğurmalı idi. Həmən də vergi yoxlamaları başlanmalı idi. Görünür ki, belə də olub. Sonuncu vergi hesabatında cüzi vergi verilib və yoxlamalar üçün əsas yaranıb. Vergi yoxlaması təşkil olunandan sonra əraziyə gedən vergi müfəttişlərinə qarşı zorakılıq aktı törədilib. Dövlətin rəsmi işçilərinə qarşı zorakılıq addımları atılıb. Bu ilk və sonuncu dəfə deyil. Azərbaycanda onlarla, bəlkə də yüzlərlə belə obyektlər var ki, məmurlara, deputatlara, kimlərləsə qohumluq əlaqəsi olan şəxslərə məxsusdur. Kiminsə qəyyumluğu altında olan obyektlərin sayı-hesabı yoxdur. Vergilər Nazirliyi, digər əlaqədar orqanlar da bu məsələyə ciddi yanaşmalıdırlar. Hər hansı bir insident baş verdikdən sonra yox, şübhə yaradan, hər hansı bir obyektin göstərdiyi dövriyyəsi ilə faktiki dövriyyəsi arasında şübhəli məqamlar varsa, iri holdinqlərdən tutmuş, iri obyektlərə qədər hamısı ciddi şəkildə yoxlanılmalıdır. Söhbət 100 milyonlarla manat vəsaitin dövlət büdcəsindən gizlədilməsindən gedir”.

**Natiq Cəfərli deyir ki, Vergilər Nazirliyi dövlət orqanı olaraq belə obyektlərlə bağlı mətbuatda yazılanlar bağlı monitorinq aparmalıdır:** “Azərbaycan qanunvericiliyinin tələbi var ki, mətbuatda çıxan istənilən məlumat dövlət qurumları üçün bir siqnal olmalıdır. Dünyanın hər yerində belədir. Hətta Vergilər Nazirliyinin özünün istintaq idarəsi olduğu üçün onlar da müəyyən mənada hüquq mühafizə orqanları kimi istintaq apara bilirlər. Ona görə mətbuatda çıxan istənilən biznesmen, şirkətlər haqda məlumatlar Vergilər Nazirliyi üçün araşdırma başlamağa əsas yaradır. Amma başlanırmı?”




**Natiq Cəfərli deyir ki, Azərbaycanda bir sıra obyektlər var ki, qəyyumlarına, sahiblərinə görə hüquq mühafizə, vergi orqanları üçün əlçatmazdır:** “Əslində Azərbaycan çox kiçik ölkədir. Kimin harada nəyi var, bunu dəqiqləşdirmək, araşdırmaq elə də ciddi səylər tələb olunmur. Qəribə səslənsə də, Azərbaycanda ən ”şəffaf" sahələrdən biri korrupsiyadır. Yəni hamıya məlumdur kimin obyektləri, zavodları, restoranları var. İstənilən taksi sürücüsündən bu və ya digər restoranın rəsmi, qeyri-rəsmi sahibinin kim olduğunu soruş, deyəcək. Azərbaycan kiçik ölkə olduğu üçün insanlar maraqlanmasalar belə böyük informasiyaya malik olurlar. Hüquq-mühafizə orqanları belə informasiyaların monitorinqini aparıb, mətbuatda, sosial şəbəkələrdə olan məlumatların yoxlanılması, dəqiqləşdirilməsi ilə bağlı ciddi araşdırmalar aparmalıdır. Nəhayət ki, Azərbaycanda bizneslə məmur bir-birindən ayrılmalıdır. Azərbaycanda bizneslə məmur çulğaşıb. Günün birinci yarısı məmur olanlar, günün ikinci yarısı biznesmenə çevirilirlər. Buna son qoyulmalıdır. Bu cür yanaşma rəqabəti mühiti də genişləndirəcək, qiymətlərin aşağı düşməsinə səbəb olacaq, daha keyfiyyətli xidmət yaradacaq. Məmurla biznes bir-birindən ayırılmayınca “Relaks”dakı hadisələr təkrarlanacaq".

**Hüquqşünas Əkrəm Həsənov** isə ümumən vergidən yayınma halına görə Vergi Məcəlləsinin 58-ci maddəsinə əsasən müvafiq vergi məbləğinin 50-100 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilə bildiyini deyib: “Yəni vergi ödəyicisi ödəmədiyi vergi ilə bərabər büdcəyə sanksiya üzrə məbləği də ödəməlidir. Bu, sırf iqtisadi məsuliyyətdir. Eyni zamanda vergidən yayınma əlavə olaraq inzibati və ya cinayət məsuliyyəti ilə də nəticələnə bilər. Az miqdarda (20.000 manatadək) vergidən yayınmağa görə İnzibati Xətalar Məcəlləsinin 460-cı maddəsi ilə məsuliyyət nəzərdə tutulub: Müvafiq məbləğinin 30 faizindən yetmiş faizinədək məbləğdə cərimə edilir. Amma bu əməli ilk dəfə törətmiş şəxs inzibati xəta nəticəsində vurulmuş ziyanı tamamilə ödədikdə inzibati məsuliyyətdən azad olunur. 20.000 manatdan artıq yayınma Cinayət Məcəlləsinin 213-cü maddəsi ilə cinayət məsuliyyətinə səbəb olur. Belə ki, 20 min - 100 min manat arası yayınma cinayət nəticəsində vurulmuş ziyanın iki mislindən dörd mislinədək miqdarda cərimə və ya 2 ilədək müddətə islah işləri və ya 3 ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə 3 ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Eyni əməllər mütəşəkkil dəstə tərəfindən törədildikdə və ya 100 min manat miqdardan artıq yayınma olduqda, cinayət nəticəsində vurulmuş ziyanın 3 mislindən 5 mislinədək miqdarda cərimə və ya 3 ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə 3 ildən 7 ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Amma bu əməlləri ilk dəfə törətmiş şəxs cinayət nəticəsində vurulmuş ziyanı tamamilə ödədikdə cinayət məsuliyyətindən azad olunur”.

**Yada salaq ki, Vergilər Nazirliyinin müfəttişləri “Relaks” İstirahət və Turizm Mərkəzinə “vergidən yayınma əsaslarına görə vergi yoxlaması aparmaq üçün” gediblər.**

Bu zaman Vergilər Nazirliyinin və hüquq-mühafizə orqanlarının əməkdaşları ilə istirahət mərkəzinin rəhbərliyi arasında qarşıdurma baş verib. Sosial mediada yayılan və həmin insidentdən olduğu deyilən video görüntülərdə İqbal Məmmədovun oğlu Mirhəmid Nərimanlı və qardaşı oğlu olduğu iddia olunan Orxan Məmmədovun vergi əməkdaşları ilə dalaşdığı görünür. Video görüntülərdə Orxan Məmmədov olduğu iddia olunan şəxs vergi əməkdaşlarını və polis əməkdaşı geyimində olan şəxsləri hadisə yerindən qovmağa çalışır və təhqiramiz ifadələrdən istifadə edir. Onlar Cinayət Məcəlləsinin vəzifə səlahiyyətlərini ağır nəticələrə səbəb olmaqla aşma və hakimiyyət nümayəndələrinə həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə maddələri ilə məhkəmənin qərarına əsasən həbs olunub. Vergilər, Daxili İşlər nazirlikləri və Baş Prokurorluğun yaydığı birgə məlumatda deyilir ki, Vergilər Nazirliyinin xidməti istifadəsində və nazirlik əməkdaşlarının şəxsi istifadələrində olan avtomaşınlara daş parçaları ilə zədələr yetiriblər. Rəsmi məlumatda qeyd olunur ki, “Relaks” İstirahət və Turizm Mərkəzinin dövlət büdcəsinə ödədiyi vergilər kəskin azaldığına görə mərkəzin real vergi potensialını ölçmək məqsədilə ərazidə vergi yoxlamaları keçirilib. Sahəsi 14 hektardan çox ərazidə yerləşən, qonaqların qalması üçün 142 nömrədən və müxtəlif təyinatlı 20 obyektdən ibarət olan mərkəz 2018-ci ildə 10 min 726 manat, 2019-cu ilin ötən dövrü ərzində isə 972 manat vergi ödəyib. Hazırda Mərkəzdə vergi nəzarəti tədbirləri davam edir. Vergilər Nazirliyinin rəsmi saytında göstərilir ki, “Relax Resort and Spa Hotel”in (2018-ci ildə rəsmi qeydiyyatdan keçib) mərkəzin rəsmi təmsilçisi Nərimanlı Mirhəmid İqbal oğludur. “Relax Lerik”in (2017-ci ildə rəsmi qeydiyyatdan keçib) qanuni təmsilçisi isə İqbal Məmmədovun qardaşı olduğu deyilən Məmmədov Çingiz Nəriman oğludur.

**Hər iki şəxs hazırda həbsdədir.**

**❑ E.HÜSEYNOV, “Yeni Müsavat”**



# O quşun adı

**Samir SARI**

**Bir jurnalist üçün ən xoş məqamlardan biri də odur ki, uzun illər öncə yazdığı nəsə, məsələn, 25 ildən sonra bir yerdə qarşısına çıxır və o, öz cümləsini, sözlərini tanıyır. Hətta müəllifi göstərilmiş olmasa da, adama ləzzət edir. Bilirsən ki, hansısa sözün yaddaşlarda yaşayır.**

Dünən həmkarım və qonşum Elçin Rüstəmli sosial şəbəkədə bir lətifə paylaşmışdı, ilk cümləsindəncə tanıdım. Bu, 25 il öncə yazıb Əsgər Əhmədə verdiyim, onun da Ayaz Əhmədova təqdim etdiyi və satirik “Çeşmə” qəzetində dərc olunmuş lətifəydi. Elçin bu lətifəni gündəmlə səsləşdiyi üçün müxtəsər şəkildə, yaddaşında qaldığı qədər yazıb-paylaşmışdı.

Lətifədə sadəcə bir təhrif vardı - müdafiə nazirinin adı. 1994-cü ildə Azərbaycanın müdafiə naziri Tacəddin Mehdiyev yox, Məmmədrəfi Məmmədov adlı bir general idi. Onun ana dilimizdə bir kəlmə bildiyi yox idi, nazir kimi isə el üzünə çıxarılmaz biriydi. O, mənim yaddaşımda fərasətsiz, inert biri kimi qalıb. “Çeşmə”də çıxan lətifəni ona həsr etmişdim və məzmunu aşağıdakı kimiydi (mən də yaddaşdan yazıram):

“General Məmmədrəfi Məmmədovun tənbəlliyindən və işbilməzliyindən narazı qalan Ali Baş Komandan bir gün onu yanına çağırıb deyir: - Məmmədrəfi, nə qədər kabinetdə oturmaq olar? Ordu hissələrinə, cəbhə bölgələrinə getmək lazımdır. Bax, sabah hərbi hava qüvvələridir, get aviasiya qüvvələrinin hissəsinə, şəxsi heyəti yığ, çıxış elə. Onları şahinə bənzət, ruhlandır”.

Nazir “baş üstə” deyir və sübh tezdən hərbi hissəyə gedir.

Köməkçisi Ali Baş Komandanı səhər tezdən yuxudan oyadır ki, bəs, general hərbi hissədən zəng edib. O, narahat olur, telefonun dəstəyini götürüb xəbər alır: - Nə olub, Məmmədrəfi? Səhər tezdən xeyirdirmi? Nəsə bir hadisə baş verib?

Məmmədrəfi Məmmədov sakit səslə cavab verir: - Xeyr, cənab prezident, heç nə olmayıb. Eləcə onu soruşacaqdım ki, dünən dediyiniz o quşun adı nə idi...".

Hazırda yenə də ortada “quş” söhbəti var. Sadəcə, bu dəfə hərbi hava qüvvələrimizin şahinə, tərlana, qartala bənzədilməsi aktual deyil, söhbət onların işinə, uçuşuna mane olan, hərbi təyyarənin qəzaya uğramasına səbəb olduğu deyilən quşlardan gedir.

Doğrusu, qəzaya uğrayan qırıcının qara qutusunu özüm şəxsən oxumadığım üçün burada dəqiq deyə bilmirəm ki, yüksək peşəkarlığa malik pilotumuzun qəzaya uğramasının əsl səbəbi nədir.

Amma internet resurslarında yayılan müvafiq videolardan görünür ki, prinsipcə, quş topası həm sərnişin təyyarələrini, həm də qırıcı təyyarəni qəzaya uğrada bilir. Quşlarla toqquşmadan sonra birtəhər eniş edən və ağzı-burnu cırıq-cırıq olmuş təyyarə şəkilləri də çoxdur, “Feysbuk” dolub-daşır.

Hazırda ölkədə yekə bir mübahisə gedir ki, qırıcımızın qəzaya uğraması quş işi deyil. Bunu əminliklə söyləyənlər var. Onların arqumentlərindən biri də odur ki, quş gecənin o vaxtı o hündürlükdə nə gəzirdi.

Eyni zamanda sosial şəbəkədə təkcə İsveçdə ildə 400 dəfəyə yaxın “təyyarə-quş” toqquşması barədə statistik göstərici yayılıb. Bu, o deməkdir ki, o biri ölkələrdə də tez-tez belə haqq-hesablar olur. Yoxsa elə çıxar ki, dünyanın bütün təyyarə tarançılığı edən quşları İsveçə yığışıb.

Bu “quş-təyyarə”məsələsi bizdə ona görə kəskin mübahisəyə səbəb olub ki, əsl həqiqətin xalqa deyilməsini tələb edənlər var.

Lap tutaq ki, təyyarəmizin qəzaya uğraması hansısa məsuliyyətsiz quş topasının üzündən baş verməyib və əsl həqiqət belədir ki, təyyarə yad cismlə (məsələn, raketlə) vurulub.

Sizcə, bunu iddia etmək, hansısa bir ölkənin adını çəkib, onu ittiham etmək mümkündürmü? Əlbəttə, ittiham etmək olar, bəs o ittihamın arxasında durmaq, türkün sözü, sonuclarına qatlanmaq olarmı?

Biz hərdən hansı coğrafi məkanda yerləşdiyimizi, hansı dövlətlərlə qonşu olduğumuzu unuduruq.

11 il öncə Gürcüstana hücum edərək, prezident Saakaşviliyə qalstuk çeynətdirən dövlətdən danışırıqsa, onu nədəsə ittiham etmək (hətta haqlı olsaq da) çox çətin olar, bu, ona müharibə elan etmək anlamına gələr.

Hər məsələdə səmimi olmalıyıqsa, məsələnin bu tərəfi də var. Yəni çox da şey eləməyək.

**Bununla belə, həqiqəti ortaya çıxarmaq lazımdır - ictimailəşdirmək mümkün olsa da, olmasa da.**

# Siyasətçilər Şeyxin yubileyini təbrik etdilər

## Partiya sədrləri 70 yaşı tamam olan Hacı Allahşükür Paşazadənin cəmiyyətdəki rolundan danışdılar

**Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Hacı Allahşükür Paşazadənin avqustun 26-da 70 yaşı tamam olur. Bununla əlaqədar müxtəlif tədbirlər keçirilir, onun ünvanına təbriklər səsləndirilir.**

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, deputat Fərəc Quliyev** Şeyxi təbrik etdiyini söylədi: “Ona təbrik məktubu göndərmişəm. Bir daha sizin imkanlardan istifadə edib, Şeyxi təbrik edirəm, ona uzun ömür, fəaliyyətində uğurlar arzulayıram. Bəzən ona qarşı haqsız hücumlar olur, onu gözdən salmaq istəyirlər. Bunlar bir məqamdır. Bütün Qafqazı idarə edən islam dünyasının bir hissəsində ciddi bir idarənin rəhbəri olan, xalqımızın içərisindən çıxan birisinə biz layiq olduğu şəkildə yanaşmalıyıq. Şeyx imkanlarından istifadə edib islam dövlətlərində Azərbaycanı təbliğ etmək, problemləri qaldırmaq üçün əlindən gələni edib. Konfranslarda Dağlıq Qarabağ məsələsini dəfələrlə qaldırıb. 90-cı illərdən onu tanıyıram. Onun o dövrdəki, xüsusilə, 20 Yanvar hadisələrindəki fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Sonrakı dövrlərdə sabitliyin yaranmasında, müxtəlif etnoslar arasında din faktorundan istifadə edilib münasibətlərin bir araya gətirilməsində böyük xidmətləri olub. Çox mütəvazi bir adamdır. Onunla həmkar olmuşuq. Deputat fəaliyyətini yaxından izləmişəm. Həddən artıq çalışqan, cəmiyyətə xeyir verməyi düşünən biridir. Azərbaycan cəmiyyətində din pərdəsi adı altında hücumların qarşısının alınmasında müstəsna xidmətləri var. Bu siyahını uzatmaq mümkündür. Cəmiyyətimizdə bütün insanlara müraciət edirəm ki, bu insan siyasətə qarışmayan bir personadır, onu qorumalı, ona kömək etməliyik. Bundan sonra Şeyxə fəaliyyətində uğurlar arzulayıram”.



**Böyük Quruluş Partiyasının sədri, deputat Fazil Mustafa**: “Qəzet vasitəsilə ümumi təbrik edirəm. Allah can sağlığı versin. Onun doğum günü ilə bağlı keçirilən ötən tədbirə dəvət olunmamışdım. Lakin yeni yubiley tədbiri keçirilsə, dəvət olunsam, Bakıda olaramsa, iştirak edərəm. Şeyx olduğu müddətdəki fəaliyyətini onu qəbul edən dindarların qiymətləndirməsi daha doğrudur. Onun fəaliyyət sferası ruhanilərin daha çox diqqət mərkəzində olub. Bizim diqqətimiz ən çox siyasət adamlarının fəaliyyətinə yönəlir. Amma hər halda Şeyxin müsbət işləri Azərbaycanda kifayət qədər çoxdur. Azərbaycanın beynəlxalq səviyyədə təmsil olunmasında da onun xidmətləri böyükdür. O, barışdırıcı fiqur kimi bəzi vaxtlarda Azərbaycan cəmiyyətində müəyyən epizodlarda oynadığı rola görə nəzərdə tutulub. Şeyxin bu istiqamətdə kifayət qədər gördüyü böyük işlər var. Amma Azərbaycan cəmiyyətini barışdırmağın mümkünsüz olduğunu qəbul etməliyik. Cəmiyyətimizdə təhsil səviyyəsi o qədər aşağıdır ki, təhsilimiz sadəcə diplom sayı ilə müəyyən olunmur. Ona görə də cəmiyyətimizdə zahiri bir həmrəylik kimi görünən məsələlər əslində dərindən həmrəylik kimi qəbul oluna bilməz. Məhz bu səbəbdən indinin özündə belə bu missiyanı üzərinə götürə biləcək fiqur tapmaq çox çətindir. Toplumun çoxluqla qəbul etdiyi Xudu Məmmədov obrazında adam tapmaq bu gün müşkül məsələyə çevrilib. Hamının qəbul edəcəyi elə bir xarakterə sahib insan olmaq lazımdır ki, birləşdirici missiyanı üzərinə götürə biləsən. Amma Şeyxin bu istiqamətdə gördüyü böyük işlər danılmazdır. Lakin birləşdirici funksiyanı üzərinə götürən adam kimi görmürəm”.

**AĞ Partiya başqanı Tural Abbaslı** Şeyxin xidmətlərindən söz açdı: “Əvvəla, onu təbrik edirəm. Onun Azərbaycan tarixində yerinə dair mövqelər birmənalı olmasa da, Azərbaycanın müstəqillik tarixində özünün dəst-xətti olan bir simadır. Ən azından bu günə seçilmiş dörd prezidentə müqəddəs kitabı təqdim edib. Uzun illər dini qurumun başında olub. Tək onun fəaliyyəti olmasa da, Azərbaycanda dini qarşıdurmaların olmamasında və digər bu kimi hallarda onun böyük rolu var. Partiya olaraq xüsusi bir təbrik bəyanatı ünvanlamayacağıq. Azərbaycan vətəndaşı, tariximizdə bu və ya digər dərəcədə rolu olan bir şəxs olduğu üçün onu öz adımdan təbrik edir, uzun ömür arzulayıram. Onun təmsil olunduğu post zatən barışdırıcı funksiya rolunu oynayır. Siyasi cəhətdən indiyə qədər onun belə bir rol oynadığını görməsəm də, olduğu hallar da ola bilər”.

**ADP sədri Sərdar Cəlaloğlu:** “O Azərbaycan hakimiyyətinin maraqlarını hər zaman qoruyan şəxs olub. Halbuki, Şeyx hakimiyyətdə kimin olmasından asılı olmayaraq, hər kəsə eyni gözlə baxmalıdır. Amma biz bunu görmədik. Hətta dinin özündə belə problem yarananda onu susan görmüşük. O ancaq iqtidarın Şeyxidirsə, ancaq ona sədaqətlidirsə, daha çox siyasidirsə, nəyə görə ona Şeyx kimi yanaşıb təbrik etməliyik? Bir siyasi adam olaraq, ölkənin siyasi həyatında mühüm rol oynayan, hər zaman xalqın, haqqın, ədalətin yanında olan insanları təbrik etməliyik ki, bunlardan biri də ad günü təbrikidir. Bunu da edirik. O sadəcə, bir idarənin rəhbəridir. Dediklərimi nəzərə alıb, şəxsən onu təbrik etməyəcəm”.

❑ **Cavanşir ABBASLI, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 175(7345) 24 avqust 2019

**Azad Demokratlar Partiyasının sədri, politoloq Sülhəddin Əkbərlə gündəmdəki proseslər, müxalifətin davranışları, regional məsələlər barəsində söhbətləşmişik. S.Əkbər kifayət qədər ciddi və maraqlı məqamlara toxunub.**

# "Azərbaycanda "QRU" ilə məxfi əməkdaşlıq etmiş 200-dən çox adam üzə çıxardıq"

## **Sülhəddin Əkbər:** "Elçibəy hakimiyyətinin siyasi rəhbərliyi ilə çox ciddi fikir ayrılığımız yaranmışdı"



"Başqa yerlərdə maraqları toqquşan qüvvələr Azərbaycandakı maraqlarını balanslaşdırırlar"

***- Sülhəddin bəy, müxalifətin proseslərə əhəmiyyətli təsiri yoxdur. Bəzi proqnozlar səslənir ki, payızda müxalifətin izdihamlı mitinqləri ola bilər, hətta xaricdən "inqilab" çağırışları edənlər var. Niyə hər payızqabağı bu cür məsələlər ortaya atılır?***

- Ümumiyyətlə, tarixi təcrübə ilə bağlıdır. Yay aylarında passivlik olur. Siyasi proseslərin yüksələn xətti yaz və payıza düşür. O demək deyil ki, başqa fəsillərdə ola bilməz. Çünki Azərbaycanda proseslər lokal deyil. Regionda elə hadisələr ola bilər ki, bizə də təsir edə, vaxtından tez başlaya və ya təxirə düşə bilər.

***- Müxalifətlə bağlı çoxsaylı iddialar var. Məsələn, son olaraq belə fikir vardı ki, Elçibəyin şərti komandası olan bu qüvvələr təzədən iqtidara gəlsə, ölkəni idarə etmək gücündə deyillər...***

- Əvvəla, indiki dövrlə 1993-cü ili müqayisə eləmək yanlış olar. O dövrdə milli azadlıq hərəkatı gedirdi, cəmiyyət təkpartiyalı siyasi sistemdən təzə çıxmışdı, siyasi plüralizmlə yenicə tanış olurdu.

Siyasi qruplar formalaşmamışdı, partiyalar yeni yaranırdı. İndi siyasi fəaliyyət sahəsi daralsa da, peşəkarlar təbəqəsi formalaşıb.

Digər sahələrdə demokrat mütəxəssislər yetişib, ölkədə kadr problemi yoxdur. Xalq Cəbhəsi siyasi qüvvə kimi iqtidara gəlmişdisə, o siyasi partiya deyildi. Xalq Cəbhəsində müxtəlif baxışları olan insanlar varıydı. Həmin dövrün özündə belə qruplaşmalar varıydı. Həmin insanlar ayrı-ayrı partiyalarda birləşiblər. İstənilən halda, nəinki Azərbaycanda, digər inkişaf etmiş ölkələrdə hansısa qüvvənin iqtidara təkbaşına gəlməsi indi qeyri-mümkündür.

***- Vəkil Adil İsmayılov Elçibəy hakimiyyətini DTK arxivlərini açmamağa görə qınayır. Buna AXC iqtidarının siyasi iradəsi çatmadı?***

- Həmin dövrün ən həssas məsələlərindən biriydi və məni də narahat edirdi. Amma bu haqda indiyə qədər ciddi açıqlamalar verməmişəm. Bəlkə də ilk dəfə eşidəcəksiniz. O vaxt Milli Təhlükəsizlik Nazirliyinin arxivlərinin açılması bir yana, hakimiyyətdə təmsil olunanlar, zamanında "KQB" ilə əməkdaşlıq etmiş şəxslər haqda ciddi fikir ayrılığı yaranmışdı. Mən siyasi rəhbərliyə rəsmi məlumatlar vermişəm. Amma irəliləyişə nail ola bilməmişəm və ölkənin siyasi rəhbərliyi ilə çox ciddi fikir ayrılığımız yaranmışdı.

***- Məlumatlar var ki, sabiq nazir İlhüseyn Hüseynov arxivləri aparmaq istəyib, siz bəzilərinin qarşısını almısınız...***

- Hakimiyyət dəyişikliyinə qədər arxivlər onsuz da böyük ölçüdə təmizlənmişdi. Lakin peşəkarlar bilirlər ki, nə qədər təmizlənsə də, çox materiallar qalır. Sadəcə, hamısını bərpa etmək mümkün deyildi. Onlar xüsusi qiymətli sənədləri, agentura haqda məlumatları aparmışdılar. Çox işlər görmək olardı. Həmin dövrdə Baş Kəşfiyyat İdarəsinin agenturasını üzə çıxarmaqla bağlı bir təşəbbüsümüz olmuşdu. Qısa zamanda Azərbaycanda "QRU" ilə məxfi əməkdaşlıq etmiş 200 nəfərdən çox adam üzə çıxardıq. Bunu üzə çıxara bildiksə, deməli "KQB" ilə bağlı da etmək olardı.

***- Sülhəddin bəy, Azərbaycanin yerləşdiyi regiondakı vəziyyəti necə qiymətləndirirsiz?***

- Köhnə dünya nizamı dağılıb, yeni dünya nizamının qurulması prosesi ağrılı gedir.

Düşüncəmə görə və bir qrup ekspertlər də bu qənaətdədir ki, böyük müharibə olmayana qədər dünyada yeni düzənin qurulmasını problemli görürəm. Yeni düzən qurulmasında isə hər kəs istəyir ki, güclü yer tutsun. Yumşaq güc, assimetrik müharibələr hesabına mümkün olmayacaq, regional hərbi münaqişə gözləyirəm. Tərəflərdən biri digərinə "təsirli" güc nümayiş etdirmədikcə, dünyada qeyri-müəyyənlik, qarışıqlıq davam edəcək. Sabitliyin pozulması dünyaya yayılacaq. Belə də Azərbaycan bundan kənarda qala bilməz.

Rusiya, İran və Türkiyədə gedən proseslərə baxın: Qafqazın üç ənənəvi rəqabət aparan böyük dövlətləridir. Əgər bunlar dünyadakı proseslərdən belə təsirlənirsə, müstəqilliyini yeni qazanmış, ərazilərinin 20 faizi işğal edilmiş ölkə necə təsirlənməyə bilər? Azərbaycan böyük ölçüdə təsirlənəcək. Sadəcə, dünyanın başqa yerlərində maraqları toqquşan qüvvələr Azərbaycandakı maraqlarını balanslaşdırırlar.

***- Aydın Mirzəzadə deyir ki, Azərbaycan niyə strateji seçim etməlidir. Sizcə strateji seçim dilemması qarşısındayıq?***

- Hər bir dövlətin milli maraqları var. Və öz dövlət siyasətini milli maraqlarına əsasən müəyyən etməlidir. Bu gün dünyanın inkişafı elə yerə çatıb ki, daxili və xarici siyasət bir-biri ilə üzvü şəkildə bağlıdır. Siz daxildə bir, xaricdə bir başqa siyasət apara bilməzsiniz. Məsələn, əgər siz daxildə idarəçiliyi sərtləşdirirsinizsə, heç vaxt demokratik dünya ilə normal münasibətlər qura bilməzsiniz.

Müasir milli dövlət qurmaq istəyiriksə, demokratik inkişaf yolu tutmalıyıq. Demokratik inkişaf yolu tutmaq isə artıq strateji seçimdir.

Deməli, demokratik dünya ilə inteqrasiya yolu tutmağa məcbursan. Onda xarici siyasət vektorun müəyyən olur.

***- Bir müddət əvvəl Azərbaycanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına üzvlüyü, daha öncə Avrasiya İttifaqı və Gömrük ittifaqlarına qoşulacağı haqda danışılırdı. Bu məsələlər siyasi gündəmdən çıxıbmı?***

- Aktuallığını itirdiyini düşünmürəm. Rusiya KTMT-nin Müşahidəçi İnstitutunu yaradır. Burada ilk ağla gələn Türkiyə və Azərbaycandır. Ona görə gündəlikdən çıxacağını düşünmürəm.

***- Azərbaycan KTMT-yə qoşulacaqmı?***

- Azərbaycan tərəflərdən hansının üstələyəcəyini gözləyir. ABŞ-la Rusiyanın strateji resurslarını müqayisə eləmək olmaz.

Azərbaycan strateji planda ABŞ, Avropa Birliyinin, o blokdan hələ ki çıxmayan Türkiyənin regionda üstələyəcəyini bilir. Sadəcə, onlar da dediyim müddəti gözləyirlər. Gələn ilin sonu, ya da 2021-ci ilə qədər Bakı strateji seçim etməli olacaq. Azərbaycan hakimiyyəti öz maraqları baxımdan daha düzgün seçim etmək haqda düşünür.

***- İlin sonuna qədər Avropa Birliyi ilə assosiativ sazişin imzalanacağı deyilir. Sizin gözləntiniz nədir?***

- Bayaq dediyim kimi, Azərbaycanda maraqlı olan qüvvələrin istəkləri balanslaşdırılıb. Söhbət ABŞ, Rusiya, Britaniya və İsrailin maraqlarından gedir.

Son toqquşma riskinin yüksəldiyi bir dövrdə razılaşma əldə olundu. Yeganə marağı nəzərə alınmayan Avropa Birliyi qalıb. Görünür, hakimiyyət bunu da nəzərə alır və gec-tez bu sazişi imzalayacaq.

❑ **Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**

# Qarabağ üçün Qrenlandiya modeli...

## **Akif Nağı:** "Biz Qarabağı savaşla azad edəcəyik, ermənilər onu pulla qaytarası deyillər"



**ABŞ-la Danimarka arasında razılaşma baş tutsa, adada ABŞ qanunları işləyəcək. Axar.az xəbər verir ki, bunu politoloq Natiq Cəfərli Qrenlandiyanın satılması ilə bağlı məlumatlara münasibət bildirərkən qeyd edib.**

O, ABŞ-ın Qrenlandiyanı almaq üçün irəli sürdüyü təklifin gələcək perspektivləri barədə danışıb: "ABŞ-ın tarixində pulla torpaq alınması faktları çoxdur. Bu gün də Tramp Qrenlandiyanı almaq üçün Danimarkaya təklif irəli sürüb. Təklif maraqlıdır-ildə 600 milyon dollar ödəməklə müddətsiz icarəyə götürmək istəyirlər. Yəni ada de-fakto ABŞ-ın olacaq, amma de-jure Danimarkanın da haqqı-hüququ ada üzərində qalacaq. Razılaşma baş tutsa, adada ABŞ qanunları işləyəcək, ABŞ adanın tam hüquqlu icarədar sahibi olacaq, amma Qrenlandiya vətəndaşları Danimarka vətəndaşlığında qalacaq, ABŞ seçkilərində iştirak etməyəcəklər".

N.Cəfərlinin sözlərinə görə, eyni yanaşma ilə Krım məsələsinin həllinə də hazırlıq gedir: "Fikrimcə, digər konfliktlərə örnək ola biləcək mexanizm, presedent hazırlığına start verilib. Yeni məsələ tək Qrenlandiya deyil, eyni yanaşma ilə Krım məsələsinin həllinə də hazırlıq gedir. Rusiya Krımı "özəlləşdirmək" üçün Ukrayna ilə bənzər müqavilə bağlayıb məsələni həll edəcək. Rusiya və Qərb birlikdə bu məsələni həll etməyi düşünür ki, Rusiya ilə yaxınlaşma başlasın və ümumi ciddi rəqibə-Çinə qarşı birgə səf tutsunlar".

Politoloq bu üsulla Ukrayna ilə Rusiya arasında sülh müqaviləsi imzalanacağını bildirib: "Çox güman ki, yaxın aylarda Rusiya G-8 formatına dönəcək, Ukrayna ilə sülh imzalanacaq. Donbas Kiyevin nəzarətinə qayıdacaq, amma Krımın "müddətsiz icarə müqaviləsi" prinsipi ilə Rusiyanın tərkibində qalması rəsmiləşəcək, əvəzində Rusiya hər il Ukraynaya pul ödəyəcək, ya da pulsuz neft-qaz verəcək".

**N.Cəfərli onu da deyib ki, bu mexanizmin bütün postsovet məkanındakı konfliktlərə tətbiq edilmə ehtimalı var.**

Qeyd edək ki, bundan əvvəl "Vaşinqton Post" qəzeti Donald Tramp administrasiyasının Qrenladiyanın ABŞ-ın daimi mülkiyyətinə keçməsi üçün Danimarkaya ildə 600 milyon dollar təklif etməyə hazırlaşdığını yazmışdı.

Bu mexanizmin həmçinin, bütün postsovet məkanındakı konfliktlərə, o cümlədən Qarabağ konfliktinə tətbiq edilmə ehtimalının olması barədə deyilənlərə isə Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı sərt reaksiya verdi. Akif Nağı "Yeni Müsavat"a bildirdi ki, belə bir şey mümkün deyil: "Əvvəla, ABŞ-ın Qrenlandiya təşəbbüsü yeni bir situasiya deyil. Çünki bu ölkə ştatlarının bir çoxunu pulla, ya da zorla qonşularından alıb. Məsələn, Luiziana ştatını Fransadan, Alyaskanı Rusiyadan pulla alıb. Yəni bu, yeni bir hal deyil ki, digərləri üçün də presedent yaratsın. Ona görə də bunu Krım və ya Qarabağa şamil etmək mümkün olmayan fantaziya göstəricisindən başqa bir şey deyil. Bu cür fantaziyaları uyduran "ağıllılar" gedib öz işləri, bildikləri sahə ilə məşğul olsunlar. Qarabağın adını sərsəm təşəbbüslərlə bir sırada hallandırmasınlar. Biz Qarabağı müharibə yolu ilə azad edəcəyik, ermənilər Qarabağı bizə pulla qaytarası deyillər".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 175 (7345) 24 avqust 2019



# Normal adamlar üçün

Zamin HACI
zaminhaci@gmail.com

"Burda oturma, orda otur,
Cəhənnəmdə, gorda otur!"
*(Azərbaycan ata sözü)*

**Bir nəfər aşıq hovuzda paltarlı çimənlər üçün saz çalıbdır, millət bunu tənqid edir, deyirlər nə üçün sazımızı orda mənəvi baxımdan islatmısan. Guya biz indiyə qədər hər bambılı üçün saz çalmamışıq. Ancaq mənə aşığın cavabındakı bu yer ləzzət elədi: "Onlar nə nazir, nə deputat idilər. Adi, normal adamlar idi". Məntiqlə, aşıq deputat və nazirlərimizin qeyri-adi, anormal olmasına işarə vurur. Haqq aşığı dedikləri bu olmalıdır. Ya da belə: aşıq gördüyünü çağırar.**

Əlbəttə, mən aşığın fikirlərini bölüşməkdən uzağam, nazir və deputatlarımız haqda da yüksək fikirdəyəm. Nə qədər ki, onlar işdən çıxarılmayıblar, bu yüksək fikir də dəyişməyəcəkdir. Çıxartsınlar, ondan sonra baxarıq. İndiki halda dövlət rəhbərliyi onlara etimad göstəribsə, biz niyə tərs fikirlərə düşək? Doğrudur, hələ 200 il qabaq Bonapart Napoleon müəllim "Mənim üçün bir qəzet üç batalyondan irəlidir" tipində afyorizm işlətmişdi, ancaq onun axırını gördük. Qəzetlərin, jurnalistlərin, kütləvi informasiya vasitələrinin yazdıqlarına, tənqidlərinə qəti fikir vermək lazım deyildir. Hətta əksini eləmək vacibdir - gördün kimisə çox tənqid edirlər, deməli, o adam daha yaxşı işləyir. Bizim dövlətdə iş prinsipi bu cürdür. Üstəlik, onsuz axırda pul oğurlayıb qaçan nazirləri elə özün tutub dama salmalı olursan, elədirsə qəzetçinin zəvzəməyi, boşboğazlığı niyə diqqətini çəksin?

Xalqın hovuzda paltarlı çimənlərə mənfi münasibəti də başadüşülən deyildir. Paltarsız çimməndə deyirlər əxlaqsızdırlar, paltarlı çimməndə ələ salırlar. Bəs necə çimmək lazımdır? Molla Nəsrəddinin eşşəklə yol getməyi əhvalatının müxtəlif versiyalarını hər gün yaşayırıq. Hökumət yas yerində yemək-içmək verilməsini qadağan eləmək istəyirdi, uca şeyximizin mərasim evi biznesinə görə çox üstünə gedə bilmədilər. (Hələ ki şeyxin barıt qabı tam yaş olmayıbdır, bir də gördün nəyəsə lazım oldu). Nəticədə ölkəmizdə ehsan məsələsində milli birlik pozulubdur. Görürsən hansısa rayonda mərhumun cümə axşamı münasibətilə dana kəsirlər, süfrəyə qara kürüdən osetrin kababına, üzümdən banana, avokadodan manqoya qədər min cür nemət düzürlər, başqa rayonda isə ölü yerində, aşığın sözü olmasın, "adi, normal" dovğa tapılmır boğazını yaşlayasan, bir yuxa qırığı olmur gözünün yaşını siləsən. Bu da bizim milli dövlətçiliyimizə, dünya azərbaycanlılarının qarşıdan gələn beynəlxalq həmrəylik gününə ziddir. Biz ehsan, çimmək, hovuz qırağında hansı mahnını zakaz eləmək, manısın qızı əri ilə çimərlikdə öpüşərsə məkruhdurmu və sairə - bunların hamısı üzrə çəkici bir nöqtəyə vurmasaq, bir fikrə gəlməsək, milli ideologiyamızı formalaşdırmasaq yaşamağımız mənasızdır. İndi söz əlaqədar təşkilatlarındır. Yəni, onlar müvafiq sərəncam və fərmanlarını versinlər, biz yazımıza davam edək, tema çoxdur, isti təpəmizi deşməmiş hamısını müzakirə eləməliyik.

Toydan söz açılmışkən, xarici işlər nazirimizin oğluna Amerikada toy eləməsi də müəyyən qədər mübahisələrə səbəb oldu. Camaat deyir gəlsin burdakı şadlıq sarayında evlənsin, niyə bizim ölkəni bəyənmir. Ancaq insafən xarici işlər nazirinin oğlu elə xaricdə evlənməlidir, çünki bunun bütün tanış-tunuşu, toyuna gedib pul yazdırdığı adamlar xaricdə yaşayırlar. Başqa nazir olsa qınayardıq. O cümlədən, biz arzu edərdik müdafiə naziri gələcəkdə uşağına Şuşada, "İsa bulağı" şadlıq sarayında, ya da İrəvanda "Göyçə gölü" restoranının sütunsuz salonunda toy çaldırsın. Görün nə gözəl arzulardır. (Bu arzularıma görə KİVDF-dən sərin ayran yardımı gözləyirəm).

**Ancaq millətin Nyu Yorkda keçirilən toya görə narahatlığını da təbii qəbul eləməliyik, çünki ora yad yerdir, bizim toyların isə xınayaxdı, ciyər axşamı, yengə və sairə milli adət-ənənələri vardır. Bunları Manhettendə həyata keçirmək müəyyən qədər çətindir. Nazir milli adətlərə əməl etməsə, sabah xalqdan nə umaq?**




# Paşinyan üçün sonun əvvəli göründü - gerisayım

## Ermənistan mediası "xalq baş naziri"nin xalqdan uzaq düşdüyünü yazır; "məxməri" baş nazirin başı dərddə...

**Ermənistan baş naziri Nikol Paşinyan avqustun 19-da Cermukda "Amulsar" mübahisəli qızıl mədəni ilə bağlı qərarı, bu qərarın fonunda narazı sakinlərlə polisin toqquşması, dinc nümayişçilərə qarşı zor tətbiq olunması sərt tənqid hədəfinə çevrilib. Paşinyan bir yandan həmin mədənlə bağlı inqilabönçəsi verdiyi vədə xilaf çıxmaqda, digər yandan isə ümumiyyətlə, getdikcə xalqdan ayrı düşməkdə, uzaqlaşmada ittiham olunur. Özü də onu tənqid edənlər ən çox "məxməri inqilabı"n, recim dəyişikliyinin qatı tərəfdarı olanlar, yeni Paşinyanın potensial elektoratıdır.**

Belə görünür ki, "inqilab lideri"ndən haqq-hesab sormaq zamanı yaxınlaşır. Paşinyandan iş yerləri, çörək gözləyən ac-yalavac əhali artıq yeni hökumətin il yarımlıq fəaliyyəti barədə daha ucadan, həm də narazı tonda danışmağa başlayıb. Ölkədə lokal etiraz aksiyaları göz görəsi çoxalıb. Öz növbəsində media və ekspert dairələri hökumətə qarşı tənqidin dozasını kəskin qaldırıb. Eyni zamanda, Nikol Paşinyana daha tez-tez onun inqilab öncəsi verdiyi vədlər və bəyanatlar xatırladılır.

*****

"Avqustun 19-u Paşinyan idarəçiliyinin sonunun başlanğıc günü sayıla bilər. Həmin gün baş nazir ilk dəfə xalqı vecinə almayaraq, qulaqardı elədi". "Yeni Müsavat"ın məlumatına görə, bu barədə Armenianreport.com-un dünənki baş məqaləsində deyilir.

Məqalədə daha sonra deyilir: "Ölkədə məxməri inqilab ona görə baş verdi ki, yuxarılar əvvəlki kimi idarə edə bilmir, aşağılar isə əvvəlki kimi yaşamaq istəmirdilər. Nəticə məlumdur. Ekspert camiyəsinin əksəriyyəti deyir ki, baş nazir Nikol Paşinyanın bioqrafiyasına bu tarix - 19 avqust 2019 artıq dəqiq həkk olunub. Məhz həmin gün o, formal olaraq, Amulsara ətrafında da mövzuya münasibət bildirib. Reallıqda isə öz reytinqini məhv edib. Paşinyan özünü məhz Serc Sərkisyan kimi aparıb. Halbuki hamı ondan tamam başqa şey gözləyirdi".

Müəllif ardınca Paşinyan haqda daha kəskin ifadələr işlədir: "Həqiqətən də, hər şey çox abırsızcasına oldu. Hamı xatırlayır ki, Nikol Paşinyan yaxın zamanlarda yerli Cermuk sakinlərinə söz vermişdi ki, mədənlə bağlı onları narahat edən problemləri birgə müzakirə edəcək. Bu düzgün qərar idi. Axı son günlərə kimi onlar baş naziri Cermuka dəvət edirdilər ki, onunla müzakirə aparılsın. Ancaq sonra baş nazir anlatdı ki, sakinlərlə görüşmək fikrində deyil. O, hətta onların açıq məktubunu da ciddiyə almadı. Mahiyyət etibarilə bu, hamımızın, xalqın üzünə tüpürmək idi. Biz artıq görürük ki, Paşinyan avtoritar ola, yalançıya çevrilə və hətta bundan utanmaya bilər. Onu hətta bu da dayandırmır ki, bütün bunlara qarşı onun dünənki və indiki silahdaşları da çıxış edir. Bu - çox kədərlidir. Paşinyan sürətlə gözdən düşür".

*****

"Son il yarımda Paşinyan avqust 19-dakı kimi zəif olmamış, dediyi sözlərlə xalqla bunca ləyaqətsiz davranmamış, onda qıcıq və şübhə yaratmamışdı. Həmin çıxışdan sonra insanların verdiyi reaksiyalardan da bunu görmək olar. Onların mütləq əksəriyyətində şübhələr, yanaşmaları dəyişmək çağırışları, açıq şəkildə yalan və nağıl danışmaqda ittihamlar yer alır".

Bu sözlər isə 1 in.am saytında getmiş tənqidi materialdandır.

"Nə olur-olsun, 19 avqustdan sonra hadisələr başqa məcraya girib. Bundan sonra cəmiyyətin başqa, real Paşinyanla işi olacaq - hansı ki, öz məfkurəsi və hərəkət stili ilə əvvəlki Paşinyana daha yaxındır, nəinki məxməri Paşinyana. O Paşinyana ki, dünən deyirdi: "Düz edirlər ki, onların qapısını sındırılar". Bu gün isə mühafizəçilər narazı insanları "həmin sındıranların" nümayəndələrinin qapısına belə buraxmırlar ki, Paşiyanın yanına düşsünlər, ona etirazlarını çatdırsınlar. Odur ki, 19 avqust bütün bunlara nöqtə qoydu. Paşinyan artıq bundan son necə var elədir - olduğu kimi".

*****

Ermənistan toplumunda hazırkı hakimiyyətə qarşı ritorikanın, sərt tənqidi ovqatın güclənməsi təbiidir. Hələ hakimiyyət dəyişikliyi təzə-təzə baş verəndə yaxmışdıq ki, bir ölkədə inqilab eləmək, cənnət nağılları vəd eləmək asan, bu vədləri tutmaq, müsbətə doğru inqilabi dəyişikliklər eləmək, köklü islahatlar aparmaq isə çətindir.

Söhbət Qarabağ məsələsinə, işğala görə blokada vəziyyətinə düşən, dünya okeanına çıxışdan və ciddi təbii sərvətlərdən məhrum, cırtdan və "izqoy" bir ölkədən gedirsə, perspektiv qat-qat pisləşir. Üstəgəl, Rusiyanın vassalı, hərbi qalası olmaq bədbəxtliyi ermənilərin xoşbəxtlik ümidlərini birdəfəlik sarsıdır, heç edir - hansı reallığı ki, Nikol Paşinyan da dəyişdirə bilmədi, buna iradəsi çatmadı.

Bu mənada "məxməri" baş nazir üçün 19 avqust həqiqətən də, sonun başlanğıc günü sayıla bilər...

**Yazı hazırlanarkən məlum oldu ki, vəziyyətin kritikliyini ciddiyə alan Nikol Paşinyan təzədən Cermuxa yollanıb. Lakin orada o, yenidən etirazlarla qarşılanıb. Bunu görən Paşinyan oradan uzaqlaşıb...**

❑ **"Yeni Müsavat"ın analitik xidməti**

# Azərbaycan hərbi aviasiyası Cənubi Qafqazda birinci yerdə

## MiQ-29-lar yeni nəsil qırıcılarla əvəzlənməlidirmi? Ekspert: "Türkiyə, Pakistan, İtaliya və Fransadan yeni nəsil döyüş təyyarələrinin alınmasına başlanmalıdır..."

**Gecə vaxtı təlim-məşq uçuşları keçirən Hərbi Hava Qüvvələrimizin MiQ-29 təyyarəsinin qəzaya uğraması bu növ döyüş təyyarələrini və ümumiyyətlə Azərbaycan hərbi aviasiyasının arsenalında hansı növ döyüş təyyarələrinin olduğunu, MiQ-29-un müasir tələblərlə uyğun gəlib-gəlmədiyi kimi məsələləri də müzakirə mövzusuna çevirib.**



Xatırladaq ki, indiyə kimi Xəzər dənizində bir neçə dəfə dəhşətli təyyarə və vertolyot qəzaları baş verib. Həmin qəzalardan ikisi MiQ-29-un payına düşür. 29 yanvar 2008-ci ildə Azərbaycan Hərbi Hava Qüvvələrinə məxsus MiQ-29 döyüş təyyarəsi təlim uçuşu zamanı qəzaya uğrayıb. Hacı Zeynalabdin Tağıyev qəsəbəsindəki hərbi bazadan təlim uçuşu üçün havaya qalxan "MiQ-29" döyüş təyyarəsi sahildən 6 km uzaqlıqda dənizə düşüb. Qəza nəticəsində təyyarəni idarə edən hər iki pilot - Fəxrəddin Əsgərov və Əfqan Aslanov həlak olub. Ə.Aslanovun cəsədi bir neçə gün sonra dənizdən aşkarlansa da, F.Əsgərovun meyitini tapmaq mümkün olmayıb. MiQ-29-un iştirak etdiyi ikinci qəza isə pilot Rəşad Atakişiyevin həlak olması ilə nəticələnən 24 iyul 2019-cu ildə baş verən qəzadır.

Dünyada isə 50-dən çox MiQ-29 qəzası baş verib. Maraqlıdır ki, qəzaların heç birində quşla toqquşma hadisəsi qeydə alınmayıb. Mühərrikin sıradan çıxması, toqquşma, idarəetmənin itirilməsi, sərt eniş zamanı yaşanan qəzalar zamanı 23 pilot həlak olub, 35 pilot sağ qalıb, 16 pilot katapult edə bilməyərək, 7 pilot katapult edərək həlak olub.

**Dünyada 1992-ci ildən indiyədək 43 MiQ-29 qəzası baş verib.** Qəzaya uğrayan MiQ-29 sayına görə dünyada ilk yerdə 23 hadisə ilə Rusiya dayanıb. Bu dövrdə Macarıstan və Hindistanın hər birində 3, Ukrayna, Qazaxıstan, Rumıniya, Belarus və Slovakiyanın hər birində 2, Peru, Bolqarıstan, Myanma, İran, Polşa və Misirin hər birində isə 1 MiQ-29 təyyarəsi qəzalarda sıradan çıxıb.

Azərbaycan Hərbi Hava Qüvvələri barədə Vikipediya məlumatlarında qeyd edilir ki, Azərbaycanın ilk hərbi pilotu Fərrux ağa Qayıbov olub. O, 1-ci Dünya Müharibəsində almanlara qarşı keçirilən hava əməliyyatlarında fəal iştirak edib və Belarus ərazisində gedən döyüşlərdən birində həlak olub. Azərbaycanın ikinci müstəqilliyi dövründə -1992-ci ilin aprelin 8-də isə baş leytenant Vaqif Qurbanov keçmiş sovet ordusunun Sitalçay aerodromundan, "Su-25" döyüş təyyarəsini qaçıraraq Azərbaycan ordusuna gətirir. Bununla da Azərbaycan HHQ ilk qırıcı təyarəni arsenalına qəbul edib. Az sonra "Nasosnı"-indiki Hacı Zeynalabdin Tağıyev hərbi aviasiya alayının komandiri, polkovnik Vladimir Kravtsov (Azərbaycan HHQ-nin ilk komandanı) və Dəllər aerodromunda xidmət edən polkovnik-leytenant Aleksandr Pleşin səyləri nəticəsində bu bazalardakı sovet aviasiyasına məxsus təyyarələr Azərbaycan ordusunun tabeçiliyinə verilib. 1992-ci ildən Azərbaycanda HHQ ilə bağlı islahatlar dövrü başlanıb. Həmin il bu qurumun strukturu milliləşdirilib. General-mayor Rail Rzayev HHQ-nin komandanı təyin edilib. Bir qədər sonra HHQ Hava Hücumundan Müdafiə Qoşunları ilə birləşdirilib. General-leytenant rütbəsi alan Rail Rzayev Hərbi Hava Qüvvələri və Hava Hücumundan Müdafiə Qoşunlarının (HHQ və HHMQ) komandanı kimi 2009-cu ildə qətlə yetirilənədək fəaliyyətini davam etdirib.

**1997-ci ildə Azərbaycanın Ali Hərbi Təyyarəçilik Məktəbi ilk milli hərbi təyyarəçilərimizin buraxılışına başlayıb.** Beləliklə, 2005-ci ildən Azərbaycanda müdafiəyə ayrılmış vəsaitlərin əhəmiyyətli hissəsi məhz HHQ və HHMQ-nin dirçəldilməsinə sərf edildi.

Hərbi Hava Qüvvələrinin aerodromlarının modernizasiya proqramında Azərbaycanın ən aktiv tərəfdaşı ABŞ-dır. Xatırladaq ki, Azərbaycan və NATO arasında imzalanmış Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı (İPAP) çərçivəsində H.Z.Tağıyev qəsəbəsindəki hərbi aerodrom modernləşdirilib. Eyni zamanda hərbi aerodromlarda uçuşların təhlükəsizliyini təmin etmək məqsədilə xüsusi avadanlıqlar quraşdırılıb, texniki təminat binaları yenidən tikilib və təmir edilib, aerodromun texniki təminatı, paraşüt-desant xidməti və əyləc paraşütlərinin yığılması binalarının inşasına başlanılıb. Əsas start komanda məntəqələri, mühəndislərin idarəetmə məntəqələri və mühəndis aviasiya xidmətinin heyətləri üçün binalar istifadəyə verilib. 2008-ci ilin sentyabr ayından etibarən HHQ-nin mərkəzi idarəetmə sisteminin modernizasiya olunmasına Türkiyə kömək edib.

Azərbaycan HHQ-nin pilotları MDB məkanında ən çox uçuşlar keçirmiş pilotlar sayılır. Azərbaycan pilotları əsasən Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbində hazırlanır, Türkiyə, Ukrayna, ABŞ və digər ölkələrin müvafiq ixtisasartırma kursları və təlimlər keçirlər.

**Hazırda Azərbaycan Cənubi Qafqaz regionunda maddi-texniki imkanlar baxımından yüksək və ən çox döyüş təyyarəsi olan ölkə sayılır.** Müxtəlif məlumatlara görə, hazırda 8000 nəfər personalın xidmət etdiyi Azərbaycan HHQ arsenalına 200-ə yaxın döyüş təyyarəsi, 160-a yaxın zərbə helikopteri, həmçinin 46 ədəd yardımçı təyyarə və helikopter daxildir. 8000 nəfər personalın xidmət etdiyi HHQ-nin arsenalında "Aero L-29", "Aero L-39" təlim-hücumçu, müxtəlif təyinatlı MiQ-21, MiQ-25, MiQ-29, Su-17, Su-24, Su-25, İl-76, An-24, An-12, Tu-134A, Tu-16, Mi-2, Mi-6, Mi-8, Mi-24, Mi-35M markalı helikopterlər, həmçinin dünyanın tanınmış şirkətlərinin (Aerostar, Orbiter) istehsalı olan pilotsuz uçan aparatlar var.

2006-cı ildə Ukrayna ilə imzalanmış müqaviləyə əsasən Azərbaycan bu ölkədən 29 ədəd modernləşdirilmiş MiQ-29M döyüş təyyarəsi, həmçinin Mi-24 helikopterləri alıb. Azərbaycanla Belarus arasında hərbi-texniki əməkdaşlıq çərçivəsində, Hərbi Hava Qüvvələrimizin MiQ-29 və Su-25 döyüş təyyarələri Belarusun "Müdafiə Təşəbbüsləri" müəssisəsi tərəfindən hazırlanan "Talisman" Gövdə Müdafiə Kompleksi (GMK) ilə də təchiz edilib.

*Bəs Azərbaycan ordusu Rusiyadan və ya başqa ölkələrdən MİQ-29-u əvəz edən daha müasir döyüş təyyarələri almalıdırmı?*

**Ekspert Məhəmməd Əsədullazadə** "Yeni Müsavat"a bildirdi ki, MİQ-29 modifikasiyalı qırıcılar təhlükəli təyyarələr seriyasına daxildir: "Artıq bu tipli təyyarələrdən imtina etməli, müasir yeni nəsil qırıcı təyyarələri üstünlük verilməlidir. Azərbaycanın hərbi aviasiya parkı Rusiyanın istehsalı olan əsasən 1980-cı illərin qırıcı təyyarələri ilə təchiz olunub. Bu döyüş təyyarələrinin manevr və döyüş qabiliyyəti Azərbaycanın yerləşdiyi məkana uyğun olaraq cavab verirdi. Hazırda getdikcə köhnələn bu tip döyüş təyyarələrinin yeniləri ilə əvəzlənməsi mütləqdi və yeni şərtlər daxilindədir. MİQ-29 tipli yüngül funksiyalı təyyarələr artıq köhnəlib və onlardan imtina edilməsi lazımdır. Məhz son illərdə bu kimi qırıcıların qəzası göstərir ki, onlardan istifadə riskdir. MİG 29-dan imtina edilməklə Pakistan və Çinin birgə istehsalı olan müasir döyüş təyyarələrindən almaq lazımdır. Rusiyanın SU-35 və digər qırıcı təyyarələrinin alınmasına gəldikdə təhlükəsizlik məsələlərinə görə bu ölkədən hərbi təyyarələr alınmamalıdır. Çünki, bu təyyarələrin idarə edilməsində texniki parametrlərinə Rusiyanın müdaxilə imkanları var. Ona görə də Türkiyə, Pakistan, İtaliya və Fransadan yeni nəsil döyüş təyyarələrinin alınmasına başlanmalıdır".

**Ekspert qeyd etdi ki, Azərbaycanın kifayət qədər maliyyə imkanları vardır ki, öz hərbi aviasiya parkını yeniləsin**: "Hesab edirəm ki, bu istiqamətdə addımlar atılacaq. Qeyd edim ki, İtaliyadan və Pakistandan təlim üçün təyyarələr alınıb. Onları silahlanmaya cəlb etmək mümkündür. Görünür, bu təlim təyyarələrinin alışından sonra bunların hərbi təyinatlı təyyarələrinin alınması reallaşacaq. Pakistan ölkəmizə Çinlə birgə istehsalı olan təyyarələrin verilməsində maraqlıdır. Həmçinin Azərbaycanın Pakistanla birgə JF-17 qırıcılarının istehsalı ilə bağlı zavodun tikilməsi də planda var. Belə olan təqdirdə bizim yaxın perspektivdə müasir və daha da təhlükəsiz qırıcılara sahib olmağımız reallaşa bilər. Bu da Cənubi Qafqazda Azərbaycanın havada üstünlüyünü daha da saxlayacaq".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**



## Fransa Azərbaycana yeni səfir təyin etdi

**Fransanın Azərbaycanda yeni səfiri təyin olunub. APA-nın verdiyi məlumata görə, Zaxarie Qross (Zacharie Gross) bu ölkənin Azərbaycanda səfiri təyin edilib. Qeyd edək ki, 2015-ci ildən Fransanın Azərbaycandakı səfiri xanım Aurelia Buşez olub.**

# Taxta bazarında malların külə dönməsinin səbəbi - qısaqapanma...

## Ərazidə qaz balonunun partlaması yanğının miqyasını genişləndirib, xəstəxanalıq olan FHN əməkdaşları evə buraxılıb; **sığorta eksperti:** "Belə yerlərin malları sığortalanmır, çünki..."

**Avqustun 22-də Bakıda taxta bazarı kimi tanınan ərazidə baş vermiş yanğınla əlaqədar Klinikі Tibbi Mərkəzə (KTM) çatdırılan Fövqəladə Hallar Nazirliyinin (FHN) əməkdaşları artıq xəstəxanadan buraxılıblar. Səhiyyə Nazirliyindən verilən məlumata görə, hazırda hadisə ilə əlaqədar xəstəxanalara müraciət yoxdur. Yanğın "Baksol yolu" yaxınlığındakı tikinti materialları bazarında olub.**

FHN-in Dövlət Yanğından Mühafizə Xidmətindən 34 ədəd texnika və 141 nəfər canlı qüvvə, Xüsusi Riskli Xilasetmə Xidmətindən 6 ədəd texnika və 60 nəfərdən ibarət canlı qüvvə cəlb olunub. İlkin hesablamalara görə, təxminən 7200 kv. m. taxta məmulatları yanıb. Bitişik obyektlər yanğından mühafizə olunub.

"Yeni Müsavat"ın əldə etdiyi məlumata görə, hadisəyə səbəbə elektrik xəttində qısaqapanma olub. Sonra ərazidəki qaz balonu partlayıb və yanğının miqyası genişlənib. Bununla ikinci dəfədir ki, taxta bazarı yanır.

Lakin zərər çəkən sahibkarların malları sığorta olunmadığına görə onlara hər hansı kompensasiya ödənilməsi nəzərdə tutulmur. Əldə etdiyimiz xəbərə görə, orada bəzi ticarətçilər mallarını sığorta etdiklərinə görə təzminat alacaqlar. Ancaq əksəriyyətinin malları külə dönüb və bir qəpik də köməklik gözlənilmir.







**Sığorta sahəsində ekspert Xəyal Məmmədxanlı**nın "Yeni Müsavat"a sözlərinə görə, əmlak bazarında yalnız daşınmaz əmlakın sığortası məcburidir: "Bura yaşayış binaları, evlər və s. daxildir. Ancaq vətəndaşların çoxu əməl etmir. Sahibkarlıqla məşğul olan obyektlər icbari sığortaya cəlb olunub. Amma "Diqlas", taxta bazarı, "Binə" və s. yerlər olsun, onlarda mallara sığorta təminatı olmayıb. Çünki sığorta şirkəti həmin obyektlərin ekskavatorunu, liftini, damını, konstruksiyalarını sığortalayıb. İçərisindəki malların sığortalanması isə mal sahibinin özündən asılıdır".

**X.Məmmədxanlı hesab edir ki, bu gün belə bazarların heç biri müasir təhlükəsizlik sandartlarına cavab vermir**: "Nə yanğınsöndürmə, nə mühafizə sistemləri var. Amma yananda yada düşür ki, kaş sığorta edəydim. İldə 3-4 dəfə belə obyektlərdə yanğın olur. Çünki kustar üsulla şərait qurublar. Biri plitədə yemək bişirir, biri kabellə qonşu dükandan işıq çəkib, tezalışan mallar yan-yana yığılıb. Bu halda sığorta şirkəti onların mallarını sığortalamaqdan imtina edir. Bu gün inşaat bazarında müasir, kondisioner, yanğın çıxışları olan obyektlər azdır. Məsələn, "Gənclik mall", "Park bulvar" kimi yerləri sığortalaya bilərsiniz. Çünki onlar təhlükəsizlik sistemlərini qurublar. Bazarlarda, pərakəndə satış yerlərində isə təhlükəsizlik qaydalarına riayət olunmur, ona görə sığorta şirkəti malları sığortalamaqdan imtina edir. İlk növbədə həmin bazarlar müasir tələblərə uyğun sistem qurmalıdırlar. Sığorta öncədən gözlənilməyən, proqnozlaşdırılmayan hadisənin sığortalanmasıdır. Bu bazarlarda isə "görünən kəndə nə bələdçi".

**Ekspertin fikrincə, analoji vəziyyət aqrar sektorda hökm sürür:** "Mal-heyvan palçıq içində, qaranlıqda, normal qidalanmır, vaxtında iynə- dərman olunmur, əkin sahələri dərmanlanmır, həşəratdan təmizlənmir. Sonra şikayətlənirlər ki, sığorta şirkəti niyə təsərrüfatımızı sığortalamır. Ona görə ki, ilk növbədə mal sahibi şəraitini sivil standarta gətirməlidir.

Çox təəssüf ki, ticarət mərkəzlərinin sığortasını heç kim etməkdə maraqlı deyil. Çünki o yerlərdə risk olduqca böyükdür, heç bir təhlükəsizlik qaydalarına əməl edilmir. Hətta bu gün oradan hər hansı bir sahibkar, dükan sahibi sığortalanmaq istəsə belə, oranı sığortalamaq mümkün deyil. Səbəb isə belə böyük ticarət mərkəzlərində sahibkarlara məxsus dükanların, onların sahiblərinin əmlakının heç bir rəsmi uçotunun olmamasıdır. Bu da sığorta şirkəti üçün arzuolunmaz haldır. Sığorta şirkəti baxmalıdır və dəqiq bilməlidir ki, dükanda nə qədər mal olub və ümumi dəyəri nə qədər olub".

**Yada salaq ki, 2019-cu il, yanvarın 22-də də taxta bazarında yanğın olub. Bu bazara mallar Rusiya, Ukrayna və Belarusdan gətirilir. Hazırda taxtanın 1 kubu 280 manatdır.**

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

# Kiminə para, kiminə bəla gətirən küçə ticarəti - SOS

## Antisanitar şəraitdə satılan və mənşəyi bilinməyən qida məhsulları ən çox uşaqlara təhlükə vəd edir...







**Yəqin ki, hər birimiz paytaxtın daha çox orta gəlirli və aztəminatlı əhalisinin yaşadığı bölgələrində küçə ticarətinin şahidi olmuşuq. İstər avtobus dayanacaqlarında, istər metro çıxışlarından, insanların ən çox üz tutduğu bazarların giriş və çıxışlarında, gediş-gəlişin çox olduğu yolların üzərində fast-food qidalardan, un məmulatları və şirniyyatlardan tutmuş ət-balıq satışına qədər rast gələ bilərik.**

Əksəriyyəti isə piştaxtalarda deyil, üst-üstə qoyulmuş yeşiklərin üzərinə düzülür, uşaq kolyaskalarında gəzdirilərək satılır və ya köhnə arabaların üstündə düzülür. Təəccüblüsü odur ki, bu məhsullara tələbat da var.

"Yeni Müsavat"ın müxbiri bu durumu müşahidə etmək üçün, 8-ci kilometr bazarı ətrafındakı küçələrə baş çəkib və dəhşətli mənzərənin şahidi olub. İlk növbədə yay fəsli olduğundan tələbatın artdığı açıq şəkildə satılan rəngli sular diqqətimizi çəkdi. Suların necə, hansı maddələrlə hazırlandığı, Günəşin altında saatlarla saxlanması bir yana, eyni şüşə stəkanlara süzülərək alıcılara təqdim edilməsi, daha sonra normal qaydada yuyulmadan başqa bir müştəriyə verilməsi xəstəkliklərin yayılması üçün nə qədər münbit zəmin yarandığını ortaya qoyur. Əksər rəngli su satıcıları 3-4 stəkandan istifadə edir. Həmin stəkanlar məlum qurğunun üzərindəki fəvvarə tipli kiçik kranda yuyulur. Stəkan ağzı üstə həmin kranın üstünə qoyulur və aşağıdan təzyiqlə vuran su həm stəkanın içini həm də ağzını yumalıdır. Lakin müşahidələrimiz onu göstərdi ki, satıcılar suya qənaət etmək üçün suyu təzyiqlə deyil, nazik sızıntı şəklində vururlar. Stəkanların şəffaf rənginin bozarması da nə qədər çirkli olduğunu göstərir. Bir nəfərin ağzından keçən mikrob və bakteriyanı sızıntı şəklində gələn sərin su təmizləyə bilməz və bunu uşaqlı analar belə diqqətə almırlar. Həmin su piştaxtalarının üzərinə sellofana yığılıb satış üçün qoyulmuş "peraşki"lər də diqqətimizi çəkdi. Qızmar Günəşin altında sellofanın bütün zəhərli maddələrini canına çəkən bu un məmulatını da ən çox bazarın işçiləri və analar alır və uşaqlarına yedirirdi.

Digər bir dəhşətli mənzərə isə uşaq arabasından düzəldilən "yeriyən qutu" idi ki, içinə qoğal, "xaçapuri" və sair düzülmüşdü. Açıq havada satılan məhsullara yolun toz-torpağı da qonurdu. Paltar satılan piştaxtanın yanında açıq şəkildə heç bir örtüyü olmadan düzülən çörəklər də bu ürək bulandıran mənzərənin bir parçası idi.

Bazarın içinə doğru uzanan yol boyu gördüklərimiz bizi təəccübləndirsə də, ən dəhşətli mənzərə alçaq piştaxtanın üzərinə düzülən hisə verilmiş balıqlar və ətrafında dövrə vuran pişiklər oldu. Zir-zibil dolu, üfunət iyi verən, asfalta yaxın qoyulmuş taxtaların üzərində 100-dən çox hisə verilmiş balıq var idi. Açıq havada satılan balıqlar saatlarla günün altında qaldığından onu yeyənin qida zəhərlənməsi keçirməməsi bir möcüzə olar deyə düşündük.

İnsanların öz sağlamlığına biganəliyi isə məhz buradan görünür, problemin digər tərəfi odur ki, həmin məhsullara tələbat var. Bazarda 3 tərəfi bağlı, lakin gönü açıq olan ət satışı məntəqələri də var. Ətlər açıq havada düzülüb, yolun toz-torpağı, günəşin şüaları ilə birgə, havada uçuşan milçəklərdən də nəsibini alan bu ətlər bəh-bəhlə insanlara satılır. Saatlarla açıq havada qalan ət parçalarının üzəri də qaxaca dönüb. Yaxınlıqdakı zibilxanadan gələn milçəklər isə hər cür zərərli mikrob və bakteriyaları ətə yoluxdurur. Standartlara uyğun şəkildə qablaşdırılmayan və norma şəraitdə saxlanılmayan ət məhsulları, hava temperaturunun da təsiri ilə nəinki qida dəyərini itirir , hətta istifadəyə yararsız zərərli məhsula çevrilir.

Ət məhsulları ilə bağlı başqa bir mənzərə isə bazarın içində idi. Toyuq və malın iç orqanlarından kabab çəkilən kiçik piştaxta natəmiz vəziyyətdə idi. Üstəlik, şişə düzülməmiş bir ləyən ət isə piştaxtanın altında asfaltın üzərinə qoyulmuşdu. İsti havada soyuducusu olmayan bu obyektdə saxlanılan və bişirilərək bazarın işçilərinə, alıcılara satılan ətlər onu yeyən insana faydadan çox zərər gətirəcəyi şübhə doğurmurdu.

Qeyd edək ki, bu sahəyə AQTA nəzarət edir. Agentliyin vəzifəsi ölkədə istehsal olunan və ölkəyə idxal olunan qida məhsulları risk əsaslı ekspertizalara cəlb olunnasıdır. Məhsullardan götürülmüş nümunələr laboratoriyada təhlükəsizlik göstəricilərinə görə müayinə olunmalı, həmçinin bazarlarda satışa çıxan heyvan mənşəli məhsullar bazar ərazisində fəaliyyət göstərən baytarlıq-sanitariya ekspertiza laboratoriyası tərəfindən müayinə olunduqdan sonra satışına icazə verilməli idi. Lakin gördüyümüz mənzərə onu deməyə əsas verir ki, hələlik agentlik bu ərazidəki vəziyyətdən xəbərsizdir.

AQTA-dan dəfələrlə bu barədə bəyanat verilib ki, ticarət üçün xüsusi ayrılmış yerlərdən kənarda və dövlət baytarlıq (baytarlıq-sanitariya) nəzarətindən keçməyən heyvan mənşəli məhsulların və xammalın satışı qanunvericiliyə əsasən yolverilməzdir. İstehlakçılar məhsul alarkən saxlanma şəraitinə diqqət etməli və etiket məlumatları ilə tanış olmalıdırlar. Qurumdan o da bildirib ki, ticarət obyektlərinin sahibləri baytarlıq-sanitariya ekspertizasından keçməyən məhsulların satışına görə qanunla müəyyən edilmiş qaydada şəxsən məsuliyyət daşıyırlar.

❑ **Nərgiz LİFTİYEVA, Foto: ALİM**



# Qarabağ danışıqlarında sükut nə vaxt pozulacaq?

## İrəvan sülh şanslarını sıfırlamaq üçün hər şeyi edir; hərb variantı Bakının masası üzərində...

**Ermənistan baş naziri Nikol Paşinyanın Xankəndindəki məlum "miatsum" sərsəmləməsindən və ardınca işğalçı ölkənin xarici işlər naziri Zoqrab Mnatsakanyanın da onu dəstəkləməsindən sonra Qarabağ danışıqlarının əslində anlamı qalmayıb. Hərçənd Mnatsakanyan srağagün bəyan edib ki, Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovla görüşlər davam edəcək.**

**Ermənistan XİN başçısı bununla bağlı jurnalistlərə açıqlamasında deyib:** "Danışıqlar prosesi dayanmayıb, davam edir. Bizim Azərbaycanla operativ əlaqəmiz kifayət qədər stabil fəaliyyət göstərir".

Lakin bu əlaqənin və ya təmasların nədən ibarət olduğunu o, açıqlamayıb. Başqa yandan, Ermənistan rəhbərliyi Dağlıq Qarabağın artıq Ermənistana birləşdirildiyini bildirirsə, o zaman İrəvan görəsən Bakı ilə nə barədə danışmağı düşünür?

*****

Belə bir ritorik sualın fonunda rəsmi İrəvan sülh prosesini daha da mənasız edən başqa təxribatçı addımlar da atmaqdadır. Məsələn, bu günlərdə rəsmi İrəvan BMT-də öz hüququndan sui-istifadə edərək, Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsindəki qanunsuz separatçı rejimin hesabatını yayıb.

**Artıq rəsmi Bakı bununla bağlı təşkilatın baş katibinə etiraz məktubu göndərib. Azərbaycan XİN-in mətbuat katibi Leyla Abdullayeva bununla bağlı deyib:** "Ermənistan BMT-də üzvlük haqqından sui-istifadə edərək BMT-dəki nümayəndəsinin baş katibə ünvanlandığı məktubunun əlavəsi qismində Azərbaycanın hazırda Ermənistan silahlı qüvvələrinin işğalı altında olan ərazilərdəki qanunsuz separatçı rejimin kağızını yayıb. Xatırladım ki, Ermənistan tərəfindən BMT, eləcə də ATƏT çərçivəsində qanunsuz separatçı rejimin kağızlarını yaymaq təcrübəsindən istifadə olunur, lakin bu heç bir halda bu təşkilatların mövqeyini əks etdirmir. Ermənistan tərəfinin BMT çərçivəsində növbəti təxribatına cavab olaraq ölkəmizin BMT yanında Nümayəndəliyinin BMT Baş katibinə etiraz məktubu ünvanlanıb və məktubumuz bu günlərdə BMT Baş Assambleyasının və Təhlükəsizlik Şurasının rəsmi sənədi kimi dərc olunacaq".




Qeyd edək ki, az öncə də İrəvan BMT-də qondarma rejimin "müstəqil dövlət" qismində təbliğinə yönəlik başqa sənəd yaymışdı.

*****

Mnatsakanyanın son açıqlamasını şərh edən "Atlas" Araşdırmalar Mərkəzi qeyd edir ki, iki tərəf arasında əlaqənin qurulması haqqında razılıq ötən ilin sentyabr ayında Azərbaycan prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasındakı qısa görüşdə əldə olunmuşdu: "Liderlər MDB dövlət başçılarının Düşənbədəki sammiti çərçivəsində görüşmüşdülər. İlham Əliyevlə Nikol Paşinyan əsasən təmas xəttindəki gərgin vəziyyəti müzakirə etmişdilər. Bu, İlham Əliyevlə Nikol Paşinyan arasında ikinci qeyri-formal görüş idi. Paşinyan görüşdən sonra demişdi ki, Azərbaycan prezidenti ilə sərhəddə hər iki tərəfdən gərginliyə və insidentlərə yol verməmək məqsədilə konkret tədbirlər görmək üçün müdafiə nazirlərinə tapşırıq veriblər. Paşinyanın sözlərinə görə, o, İlham Əliyevlə görüşdən sonra əldə olunan razılaşma haqqında separatçıların lideri Bako Saakyanı məlumatlandırmış, Ermənistan silahlı qüvvələrinin rəhbərliyinə isə müvafiq sərəncamlar vermişdi. Amma..."

**Mərkəzin təhlilində daha sonra deyilir:** "Bir il keçib. Göründüyü kimi, Düşənbədəki razılaşmalar işləmir. Paşinyan hakimiyyətdə olduğu ilk 4 ayda cəbhə xəttində sakitlik idi. Rəsmi Bakı bununla Paşinyana zaman tanımışdı. Paşinyan da bu vəziyyətdən məmnun idi. Ancaq Paşinyan Düşənbə görüşündən sonra heç bir addım atmadı və getdikcə ritorikası sərtləşdi və hətta "Qarabağ Ermənistandır" deyəcək duruma gəldi. Aydındır ki, belə vəziyyətdə heç bir razılaşma işləyə bilməzdi. Belə olan halda Ermənistan xarici işlər nazirinin nəzərdə tutduğu Azərbaycanla rabitə kommunikasiyası necə işləyə bilər? Azərbaycan Ordusu və Sərhəd Qoşunları tez-tez yerdəyişmələr edirlər, taktik döyüşlər qeydə alınır, atəşkəs də tez-tez pozulur. Və ya Ermənistan hərbçisi təmas xəttini keçərək bölmələrimizə təslim olur. Bu vəziyyətdə erməni nazirin dediyi kimi, hansısa rabitə vasitəsi varsa belə, bu, heç nəyə yaramır. Mümkündür ki, Zöhrab Mnatsakanyan erməni cəmiyyətini sakitləşdirmək üçün Azərbaycanla hansısa rabitə kommunikasiyasının işlədiyini bildirib".

*****

**Düşmən tərəfin davam edən provoikativ gedişləri təbii ki, dinc danışıqlara heç bir şans qoymur.** Müharibə variantını qaçılmaz edir. Eyni zamanda, Azərbaycana başqa yol saxlamır. Azərbaycan hərb variantını onsuz da daim masa üzərində saxlayır. Öz ordusunun hərbi və döyüş hazırlığını daha da artırmaq üçün əlavə tədbirlər görür. O sırada silahlanma strategiyasını şaxələndirməyə davam edir.

Diqqətçəkicidir ki, Bakı Ermənistanın 1 nömrəli müttəfiqi Rusiyadan silah asılılığını azaltmaq üçün yeni və daha əlverişli tərəfdaşlar tapır. Belə ki, avqustun 22-də Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənov ölkəmizdə yeni təyin olunmuş Çin Xalq Respublikasının fövqəladə və səlahiyyətli səfiri xanım Qo Min ilə görüşüb.

Müdafiə Nazirliyindən verilən məlumata görə, ölkəmizdə diplomatik fəaliyyətə başlaması münasibətilə səfiri təbrik edən müdafiə naziri ona Azərbaycan ilə Çin arasında əməkdaşlığın genişləndirilməsi istiqamətində uğurlar arzulayıb. Azərbaycan ilə Çin arasında bütün sahələrdə olduğu kimi, hərbi sahədə də əməkdaşlığın inkişaf etdiyini vurğulayan Zakir Həsənov bunun gələcəkdə də davam etdiriləcəyinə əminliyini ifadə edib.

Ölkəmizdə diplomatik fəaliyyətə başlamasından məmnun olduğunu bildirən səfir Azərbaycan-Çin əlaqələrinin, xüsusilə hərbi sahədə əməkdaşlığın inkişafı üçün səyini artıracağını qeyd edib. Görüşdə həmçinin ölkələrimiz arasında hərbi, hərbi-texniki, hərbi-təhsil və digər sahələrdə əməkdaşlıq, eləcə də mütəxəssislərdən ibarət qrupların qarşılıqlı səfərlərinin təşkili məsələləri müzakirə olunub.

**Beləcə, Azərbaycan özünün şaxələndirilmiş silahlanma strategiyasını davam etdirir. Müharibə haqqını, torpaqları zor gücünə işğalçılardan təmizləmək hüququnu isə heç kim bizim əlimizdən almayıb. Bunu ən birinci İrəvanda anlamalı və nə qədər gec deyil, daşı ətəklərindən tökməlidirlər...**


Araik Kazaryan

# Azərbaycana qaçan erməni əsgərin qardaşı: "Zabitlərlə problemi olub..."

**İşğal altındakı Azərbaycan ərazilərində, təmas xəttinin Füzuli-Xocavənd istiqamətində dislokasiya olunmuş erməni hərbi hissəsinin 19 yaşlı əsgəri, avqustun 12-də Azərbaycan tərəfə keçən Araik Kazaryanın qardaşı onun zabitlərlə probleminin olduğunu deyib (Virtualaz.org). Hazırda Ermənistan ordusunda müqavilə əsasında xidmət keçən Armen Kazaryan "Aykakan jamanax" qəzetinin əməkdaşı ilə söhbətində həmin informasiyanı ona Beynəlxalq Qırmızı Xaç təşkilatından verdiklərini bildirib.**

Lakin Armen Kazaryan deyib ki, o qardaşının qulluq etdiyi hərbi hissəyə gedə və təfərrüatları öyrənə bilməyib. "Mənə hərbi hissəyə getməyə icazə vermədilər. Ancaq Stepanakertdə (Xankəndində - red.), hərbi polisdə oldum, oradan məni geri göndərdilər, hərbi hissəyə buraxmadılar" - Kazaryan əlavə edib.

Armen Kazaryanın bildirdiyinə görə ona deyiblər ki, qardaşının Azərbaycan tərəfə keçməsi ilə bağlı məsələ məxfidir: "Ailə üzvlərimizdən də gizlədirlər".

Hərbi hissədə qardaşına təzyiq edildiyi, döyüldüyü haqda xəbərlər barədə isə Armen Kazaryan bunları deyib: "Mən bilirdim ki, onun problemləri var, lakin bu problemlərlə bağlı getdik, adamlarla görüşdük, hər şey qaydasına düşdü".

Kazaryan deyib ki, qardaşının problemi əsgərlərlə yox, zabitlərlə olub. Və görünür Müdafiə Nazirliyi bu səbəbdən faktları gizlədir.

Xatırladaq ki, Beynəlxalq Qırmızı Xaç nümayəndələri artıq fərari erməni əsgərlə görüşüb. Azərbaycan Müdafiə Nazirliyinin bildirdiyinə görə, Araik Kazaryan qulluq etdiyi hərbi hissədə müntəzəm döyüldüyünü, alçaldıldığını danışıb, onun başında, kürəyində və əlində xəsarət izləri olub.

# "Desələr ki, Anar çıxır, gəl otur yerində, getmərəm"

## Fikrət Qoca: "Elə bilirəm, bir az da yaşasam, öləndə ağlayanım olmayacaq"

**"Yeni Müsavat"ın budəfəki müsahibi Yazıçılar Birliyinin katibi, Xalq şairi Fikrət Qocadır. Onunla doğum günü ərəfəsində söhbətləşib AYB və onun ətrafında gedən müzakirələr, yaradıcılığı, bu və ya digər məsələlər barəsində danışdıq. Müsahibəni təqdim edirik.**



***- Fikrət müəllim, bu bazar 84 yaşınız olacaq. Doğum gününüzə necə hazırlaşırsınız, necə qeyd etməyi planlaşdırırsınız?***

- Bu elə yaşdır ki, mən o qədər də qeyd etmirəm. Amma hər halda dünyaya gəlmişəm - özümdən asılı olmayaraq. Yəni qazancım olub ki, gəlmişəm. Sonra gələn şeylər, o cümlədən pislər, yaxşılar xırda şeylərdir. Qalıb bir getmək, abırlı gedə bilsəm, nə gözəl.

***- Bu günlərdə Afaq Bəşirqızının da doğum günü idi. Qəzetimizə müsahibəsində qeyd edirdi ki, "Elə bir adam yoxdur ki, öz doğum gününü gözləməsin, özləməsin". Belə anladım ki, siz gözləmirsiz...***

- Bu artıq olmuş hadisədir. Əsas gərək ... hesab verəsən özünə ki, doğulmağıma görə, əzizlərimi, doğmalarımı, yaxınlarımı, insanları peşman etməmişəm ki? Əgər yox, deməli, hələ yaşamağıma dəyər. İnsan bilməlidir ki, kömək, yaxşılıq etməyə gəlib. Pis adamlar da var, amma yaxşı pisdən çoxdur ki, bu həyatı yaşayırıq. Və sənin də övladın var, sən yaxşılıq edəndə bil ki, sabah övladının qarşısına çıxacaq. Atalar deyib ki, "Nə tökərsən aşına, o da çıxar qarşına". Əsas məsələ budur. Hamını bildiyi çox sadə, primitiv bir məsələ var, bacardıqca yaxşılıq et, yamanlığa da yaxşılıq et. Çünki yamanlıq edən istəyir ki, sən dönüb, onun kimi olasan.

***- Yəni bu yaşda da sizə yamanlıq edənlər var?***

- Həmişə var. Əqrəb düşmənçilik etmir ki, çalmaq onun xasiyyətidir, zəhərini tökür. Elələri əlbəttə ki, var, gərək əqrəblərdən uzaq olasan. İnsanının şüuru var, anlayır ki, hər şey dünyada yaşayır. Bəzən elə düşünürlər ki, hər şey kağıza və ya daşa yazılanda yaşayır, amma belə deyil...

***- Bir az öncə qeyd etdiniz ki, gərək hər kəs özü ilə hesab aparsın, nəyi doğru, nəyi səhv etdiyini anlasın. Bəs özünüzlə hesabat aparanda təəssüfləndiyiniz, çəkindiyiniz məqamlar olurmu?***

- Hər axşam yatmazdan əvvəl özümə hesab verirəm. Bəzən görürsən ki, gün ərzində kiməsə yersiz söz demisən, amma buna fikir vermirsən, amma axşam yada düşür. Bu, cəhənnəm əzabıdır, insanı tər basır, qışın ortasında da yazında da. Düşünürsən ki, "nə qələt elədim, ölçüb-biçməmiş könül qırdım, adamın xətrinə dəydim". Və yaxud mənə yaxşılıq etdi, mən ona pislik etdim. Beləliklə, insan hər gün özü ilə belə hesabat aparmayanda kütləşir, edib susmağa, yalan danışmağa başlayır. Amma başa düşməlidir ki, yaxşı adam deyil. Bu zaman güzgüyə baxmaq lazımdır. Hamı eyni cür dünyaya gəlir, lakin sonradan inkişaf edirsən. Doğrudur, inkişaf etməkdə ata-ananın da təsiri var. Amma insan özü-özünü heykəltəraş kimi yonmalı, artıq şeyləri kəsib atmalıdır. Biz amma həmişə başqasını düzəltmək istəyirik. Amma gərək birinci özündən başlayasan. Əgər hər kəs özü ilə danışmağa başlasa, heç mübahisələr də olmaz. Bütün konfliktlər buna görə yaranır.



***- Bir neçə gündür ki, havalar çox isti keçir. Əksəriyyət hazırda məzuniyyətdə, istirahətdədir. Bu yaşda, bu istidə işə gəlmək, işləmək sizin üçün çətin deyil?***

- Yox qızım, yaşayıram. Bu mənim işimdir. Əslində mən evdə də işləyirəm, bu mənada ki, mənim işim əsasən yaradıcılıqdır. Bu Yazıçılar Birliyi zamanında məni Moskvaya oxumağa göndəriblər, çox sağ olsunlar ki, məni ata-ana kimi qəbul etdilər, vətənə geri döndükdən sonra isə məni işə götürdülər. Bütün bunları mənim üçün bu qurum edib. Bura elə mənim evimdir. İndi guya işə gəlməsəm, rahatlıq tapacam? Əlbəttə ki, yox. Gəlirəm bura, nə qədər gücüm var çalışıram. O borcu qaytarmaq üçün gəlirəm. Burda mənə pislik də ediblər, amma yaxşılıq o qədər çox ediblər ki, o pisliklər xırda görünür.

***- Qeyd etdiniz ki, zamanında qurum sizi Moskvaya oxumağa göndərib. Bəs indi niyə gəncləri Moskvaya təhsillərini artırmağa göndərmirsiniz?***

- Biz müstəqil ölkəyik. O zaman biz Moskvaya ilə bir yerdə idik, amma indi onlar yoxdur. Gəncləri göndərməyimiz üçün illik pul ödəməliyik. Eyni zamanda, bunun arxasında bir şey var. Ora Moskva Yazıçılar İttifaqı İnstitutdur. Onda gərək onlara bağlanaq. Amma axı biz birtəhər ayrılıb, müstəqil olmuşuq.

***- Yəni AYB-yə ayrılan vəsaitlə göndərmək olmazmı?***

- Ayrılan vəsait başqa sahəyə ayrılır. Məsələn, 20 gənc, 50 yaşlı üçün prezident təqaüdü verilir. Amma həmin gənclər gərək AYB-nin üzvü ola ki, o təqaüdü alsın. Yoxsa hər əlin gələm götürən gəncə təqaüd versək, qarant verə bilmərik ki, o, nə vaxtsa şair olacaq.

***- Tez-tez fikirlər səslənir ki, AYB-yə artıq ehtiyac yoxdur, çünki zamanında sovet ideologiyasına xidmət edib, indi isə belə bir ideologiya yoxdur. Və yaxud deyilir ki, dünyanın heç bir yerində, hətta qonşu Türkiyədə belə dövlətdən maliyyələşən bu cür yazıçılar qurumu yoxdur və sairə.***

- Sovet dövlətinin binasını qoyan Lenin olub. Onun amma ağıllı bir sözü var idi, deyirdi ki, "Siz uşağı ləyəndə çimizdirəndən sonra çirkli su ilə bir yerdə çölə atmayın". Doğrudur, aovet hakimiyyətinin çox pis işləri, repressiyaları olub. Amma orada yaxşı şeylər də olub. Məsələn, gəncləri oxutdurur, savadlandırırdı, alimlər yetişdirirdi. İndi sovet hakimiyyəti altından çıxmışıq, bu o deməkdir ki, uşağı da ləyənlə bir yerdə çölə ataq? Olmaz axı belə. Yaxşını qəbul edir, onu qoruyub, saxlayırıq. Doğrudur, dəlixanamız da var, amma institutlarımız, akademiyalarımız var. Hər şeyə qara yaxmaq doğru deyil.

***- Yəqin ki, mətbuatdan izləyirsiniz, bir sıra gənc yazarlar tez-tez deyir ki, niyə qurumda 32 ildir ki, katib işləyən Fikrət Qoca və 28 ildir***

Bəzən elə kobud şəkildə deyirlər ki, "dur, get!", adam bilmir hansı ailədən gəliblər. Yazıçı üçün əxlaq ciddi məsələdir. Yazıçı əxlaqı, tərbiyəni əsəri ilə aşılayır. Tərbiyəsiz adam hansı əxlaqı aşılayacaq?

***- Yazıçılar Birliyinin tarixinə diqqət edəndə məlum olur ki, yazıçı Anara qədər bu qurumda ən çox rəhbərlikdə qalan Mirzə İbrahimov olub, o da cəmi 10 il sədr işləyib. Sizcə yazıçı Anarın 28 il bu vəzifədə qalmasında bəxti gətirib, nüfuzu köməklik edib, ya onun qədər dəyərli sədr olan yazıçı Anar, yaşlılar yerini, kreslosunu gənclərə vermək istəmir?***

**"İnsan özü-özünü heykəltəraş kimi yonmalı, artıq şeyləri kəsib atmalıdır, amma biz həmişə başqasını düzəltmək istəyirik..."**

- Yer kresloda oturmaq demək deyil ki, yer işdir. Bu yeri səs vermə ilə seçirlər. Səs qazanmazdan öncə hörmət qazanmaq lazımdır. Ümumiyyətlə gərək yazıçı hörmət, ad-san qazansın. Hazırda qurumda 10-dan çox akademik var. Belə bir təşkilat tanınmayan bir gənci rəhbərliyə gətirsə, akademiklər deməz ki, bunlar kimdir? Məşhur, tanınmış əsəri yoxdur, amma sədr olmaq istəyir. Anarı tanıyırlar, ona görə ona səs verirlər. Hər 5 ildən bir bu vaxtı başlayırlar qaynaşmağa, iddia ortaya atmağa ki, sədr olmaq istəyirəm. İddia gərək ölçülsün. Mən kosmonavt olmaq istəyirəm. Amma axı kosmonavt yazıçılar xeyli məşq edir, illərlə bu yolu keçirlər. Bu məsələ də belədir. Biz axı bu işin necə aparılmasını bilirik. İndi deyirlər ki, bu işləri yarımçıq qoyaq, deyək ki, gəl Əhmədağa, bura sənindir? Onlar bilməyəcək işin başı harasıdır, ayağı harası.

***- Belə anladım ki, siz sədrliyə namizədliklərini verən yazıçıları tanımırsınız?***

- Vallah yaxşı tanımıram. Çünki mən yazıçıları əsərləri ilə tanıyıram. Özlərini görsəm, bilmirəm yadıma düşər ya yox. Amma hansısa şeir yadımda qalanda, istər istəməz onu xatırlayıram. Mən buranı tutub duran deyiləm, hamımız bir gün gedəcəyik. İndi dəli deyiləm ki, qoca vaxtımda durub bura gəlim. Bir gün heç qurultayı gözləməyəcəm, çıxıb gedəcəm. Gəlib işləyə biləcəklər? Amma əxlaq, tərbiyə deyilən bir şey var.

***- Anar sizcə sədrliyə niyə namizəd olmayıb?***

- Nə deyim qızım? Mən Anardan 3 yaş böyüyəm. Əgər mənə bu gün desələr ki, Anar çıxır, gəl otur onun yerində, mən getmərəm.

***- Niyə?***

- Anar həm istedadlı yazıçıdır, həm də çox ziyalı, ciddi insandır. Bununla bərabər onun insanlarla işləmək qabiliyyəti yüksəkdir. Məsələn, düşünürəm ki, ola bilər ki, hansısa məqamda özümdən çıxa, dözə bilmərəm, qarşımdakına ağır söz deyərəm, bunları yəni özümdə hiss edirəm, ona görə ehtiyatlı oluram. Amma Anardan arxayınam, onu 60 ildir ki, tanıyıram. Bir şey olanda gedib onunla məsləhətləşirəm - baxmayaraq ki, ondan 3 yaş böyüyəm, mən də onun qədər təhsil almışam. Anar bu işə layiqdir. Üstəlik, beynəlxalq miqyasda, keçmiş SSRİ məkanında olmuş dövlətlərdə tanınır. Burdan bir məktub gedəndə izah etməyə lüzum qalmır ki, kimdir, nəçidir. Biri gedəndə, deyəndə ki, "məni Anar dəvət edib", sorğusuz qəbul edirlər. Tutaq ki, burada birini biz tanıyırıq, amma axı onu dünya tanımır. İndi Anarın qədrini bilsinlər ki, işləyir. Anar bilsə ki, bir nəfər belə onun əleyhinə səs verəcək, bir dəqiqə də dayanmaz burda. Hansı ki, sədr olmaq istəyirlər, bir nəfər seçilən kimi, düşəcəklər onun üstünə.

***- Sovet dövründə də bu cür qovğalar olurdumu?***

- Olurdu. Çox şeylər görmüşəm (acı gülümsəyir).

***- Şeir yazırsınızmı?***

- Əlbəttə qızım. Yazmasam, bax o zaman işdən çıxmış olaram. Bax, o günü Allah göstərməsin. Çünki başqa mənim heç nəyim yoxdur. Özümə bir təsəlli edəcəyim şey şeirlərimdir, yaradıcılığımdır. 11 kitab çap etdirmişəm, artıq 12-cisini hazırlayıram. Mənim keçən ömrüm hamısı ordadır, səpələnib, tökülmüşəm ora. Hamısını toplasan bəlkə də içindən cavan Fikrət çıxacaq. Yazmadığım vaxtlarda isə ölmüşəm-dirilmişəm.

***- Cavanlığınızdakı olan məhəbbət anlayışı indiki ilə fərqlidirmi?***

- Məhəbbət heç vaxt donunu dəyişmir. Məhəbbətsiz yaşamaq olmaz. Yaşamaqda da, həyatda da yazın gəlməyində də məhəbbət var. Mən hər dəfə yazla yenidən gəlirəm. Təbiət başdan-ayağa möcüzədir.

***- Havanın isti olmasına baxmayaraq kostyumdasınız. Müsahibə üçün belə geyinmisiniz, ya hər gün kostumda olursunuz?***

- Qalstuk geyinməyəndə üşüyürəm (gülümsəyir).

***- Yəni yayın istisində də?***

- Bəli. Cavanlığımda da belə idim. Amma başqa vaxt bəzən görürsən ki, rahat geyimdə oluram.

***- Bildiyim qədər Üzeyir Hacıbəyov hər zaman yeni musiqi bəstələyəndə kostyumunu, qalstukunu geyinib, royalın arxasına keçirmiş...***

- Belə deyirlər. Ola bilsin ki, başqa şairlər də belə olub. Bəlkə özlərini o stola, royala itələmək üçün üzünü təraş edir, kostyum, qalstuk geyinir, özünü hazırlaşdırır. Bunların hamısı bəhanədir. Əsas iş yazmaqdır. Yazmaq həvəsi gələndə stolun altında da, stolun, dizinin üstündə də yazırsan.

***- Doğum gününüzdə kimdən zəng, təbrik, diqqət umacaq, axtaracaqsınız?***

- Bu mənim üçün böyük iş deyil axı. Artıq yaşlaşmışam. Elə bilirəm ki, bir az da yaşasam, öləndə ağlayanım olmayacaq. İnsan nə qədər yaşayar? Özü də 3 dəfə ölüb-dirilmişəm. İnsan sadəcə, onun arxasınca baxan nəvəsi və yaxud övladının nigaran, qorxu dolu baxışını fikirləşir, bax bu çox dəhşətlidir...

**❑ Xalidə GƏRAY,**
**Elçin ƏKBƏROV,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 175 (7345) 24 avqust 2019

# Azərbaycandan Şarm əl Şeyxə gedənlərin sayı kəskin artıb - səbəb

## Binasını yəhudilərin qoyduğu ərəb cənnətinə maraq niyə çoxalıb?

**Bu yay Azərbaycandan Misirin Şarm əş Şeyx şəhərinə gedənlərin sayında ciddi artım var. Müşahidələr göstərir ki, bir qayda olaraq qış mövsümündə Azərbaycandan bu şəhərdə dincəlməyə gedənlərin sayı artsa da, bu yay vəziyyət xeyli dəyişib. Ölkə mətbuatında Misirin bu cənnət guşəsinə təklif edilən turların reklamları da artıb, Şarm əş Şeyxdə dincəlib oradan fotolar paylaşanlar da.**




Qeyd edək ki, Misir dünyanın ən əsrarəngiz ölkələrindən biridir. Bu ölkə əsrlər boyu dünyanın hər yerindən insanları ehramları, piramidaları, onlarda gizlədildiyi güman edilən sərvət həvəsi ilə cəlb edib. Bu baxımdan turizm Misirdə əsrlər öncədən təşəkkül tapıb desək, yanılmarıq. Ötən əsrin 70-ci illərindən sonra Misir insanları həm də gözəl çimərlikləri, kazinoları, əyləncə mərkəzləri ilə cəlb etməyə başlayıb. Qədim tarixə malik ölkənin bir neçə şəhəri məhz müasir turizm məskəni kimi parladı. Bunlardan biri də Şarm əş-Şeyxdir. Şarm əş-Şeyx ərəbcədən tərcümədə Şeyxin Buxtası deməkdir. Bir neçə əsr əvvəl kiçik balıqçı kəndi olan bu şəhər 1967-ci ildə bütün Sinay yarımadası ilə birlikdə İsrail tərəfindən işğal edilib. 12 illik işğal dövründə yəhudilər çox əlverişli coğrafi mövqedə yerləşdiyini görüb, şəhərcikdə turizmin inkişafı istiqamətində xeyli işlər həyata keçirirlər: yollar çəkilir, otellər tikilir, infrastruktur yaradılır və sair. 1979-cu ildə ərəb ölkələri ilə əldə olunmuş razılaşma nəticəsində İsrail Sinay yarımadasını Misirə qaytarır.

Xoşbəxtlikdən ərəblər yəhudilərin başlatdığı işin gələcəyini düzgün qiymətləndirərək, Şarm-əş-Şeyxdə turizmin inkişafı istiqamətində tədbirləri genişləndirirlər. Beləliklə, bir neçə onillik bundan əvvəl yalnız bədəvi ərəblərin ayaq basdığı şəhərcik bugünkü dünyanın ən cəlbedici istirahət-əyləncə mərkəzlərindən birinə çevirlir.

1982-ci ildə bu şəhərdə cəmi 3 otel vardısa, indi onların sayı 500-ü keçib. Son illərdə isə xaricilərin əmlak sahibi olmasına icazə verilən xüsusi qəsəbələr salınıb. Dünyaca məşhur "Hyatt Regency", "Accor", "Marriot", "Le Meridien", "Four Seasons", "Ritz-Carlton" kimi şəbəkələr Şarm əş-Şeyxdə öz otellərini yaradıblar. Şəhərdə Starbucks, Hard Rock Cafe, McDonalds, Kentucky Fried Chicken kimi qidalanma şəbəkələri də məskunlaşıb. Şəhərin daimi əhalisi əsasən otel və xidmət şəbəkələrinin işçiləridir və onların sayı durmadan artır.

Şəhərin iqlimi çox isti - quru və səhra iqlimidir. Yay aylarında kölgədə havanın temperaturu 43-45 dərəcəyə çatır, qışda isə 10-15 dərəcəyə qədər düşür. Orta illik temperatur 24 dərəcədir. Dənizin suyu daim isti, günəş parlaq olduğuna görə ilin bütün fəsillərində Günəş vannası qəbul edib, dənizdə çimmək istəyən insanların axını olur.

Şəhər Peace Road adlı mərkəzi magistralla bir-birilə əlaqələnmiş bir neçə oazisdən ibarətdir. Onların demək olar ki, hamısı otel və çimərliklərdən ibarətdir. Yalnız "Şarm əş-Şeyxin ürəyi" adlandırılan Naama-Bəy adlı ərazi fərqlidir - bura Şərqin Las Veqası hesab olunur. Burada çoxsalı ticarət və əyləncə mərkəzləri, kazinolar, gecə klubları və restoranlar yerləşir. Şarm əş-Şeyxin əsas xüsusiyyətlərindən biri burada bir dənə də olsun çoxmərtəbəli binanın olmamasıdır - bütün binalar 1-3 mərtəbəlidir.

Az qala bütün şəhər otellərdən ibarətdir. Onların bir qismi dənizin sahili boyunca, digərləri bir qədər uzaqda yerləşir. Lakin burada dəniz sahilindəki çimərliklərə girişə hər hansı məhdudiyyət qoyulmur: bununla bağlı otellər arasında qarşılıqlı razılaşma var.

Bütün bu gözəllikləri ilə dünyanın diqqətini cəlb edən Misir cənnəti bu dəfə soydaşlarımızı 40-45 dərəcə istinin qeydə alındığı yay mövsümündə də cəlb etməyi bacarıb. Turizm şirkətlərindən aldığımız məlumata görə, Azərbaycandan bu yay istirahət üçün Şarm əş Şeyxi seçənlərin sayı 30 faizə qədər artıb. Əvvəllər bütün ilboyu Azərbaycandan bu şəhərə gedənlərin sayı ümumilikdə istirahət məqsədilə ölkəni tərk edənlərin 2-3 faizini təşkil edirdisə, hazırda bu rəqəm 6-7 faizə yaxınlaşır. Turizm şirkətlərindən bildirildiyinə görə, bunun səbəbi Bakıdan birbaşa Şarm əş Şeyxə aviareyslərin açılmasıdır. Belə ki, indiyədək belə reyslər qış mövsümündə təşkil olunurdu. Bu il isə Misirin Turizm Nazirliyinin təşəbbüsü ilə iyuldan eitbarən Şarm əş Şeyxə Bakıdan çarter reysləri açılıb. Bu reyslərə bilet turizm şirkətləri tərəfindən təklif edilən turpaketlər çərçivəsində satılır. 5-7 günlük turpaketlərin qiymətləri isə bir nəfər üçün qalınacaq otelin ulduz səviyyəsindən asılı olaraq 600 dollardan başlayır.

Azərbaycan Turizm Assosiasiyası İdarə Heyəti sədrinin müşaviri Müzəffər Ağakərimovun "Yeni Müsavat"a dediyinə görə, Misir həmişə Şimali Afrikanın aparıcı turizm ölkəsi olub: "Amma son illərdə bu ölkədə baş verənləri, terror aktları və sair üzündən Misirdə turizm kəskin tənəzzülə uğramışdı. Lakin ötən ildən etibarən Misir hökuməti turizmin dirçəldilməsi üçün ciddi tədbirlər həyata keçirir. Bu tədbirlər çərçivəsində bir neçə ay əvvəl Misir Turizm Nazirliyi Azərbaycanın aparıcı turizm şirkətləri və media orqanlarının nümayəndələrinin Şarm əş Şeyxə informasiya turunu təşkil etdi. Eyni zamanda, Şarm əş Şeyx otelləri qiymətlərdə ciddi güzəştlər təklif etdilər. Nəticədə ucuzluq yarandı və bu da Azərbaycan vətəndaşları cəlb edir. Ümid edirəm ki, Misirin digər ərazilərində də turizmin yenidən dirçəlməsi üçün addımlar atılacaq, ən əsası isə bu ölkədə sabitlik tam bərqərar olacaq".

Mütəxəssis deyir ki, Azərbaycanda həmişə Misirə maraq böyük olub: "Azərbaycan yeni müstəqillik əldə etdiyi illərdə yollar açılanda Türkiyə və Dubayla yanaşı, Şarm əş Şeyxə də gedişlər başlamışdı. Yəqin ki, bundan sonra gedənlərin sayı daha da artacaq".

❑ **DÜNYA,**
**"Yeni Müsavat"**




# Azərbaycanda ölüm əməliyyatlarını gerçəkləşdirən Qoçqaninin diplomu və sertifikasiyası saxtalaşdırılır - iddia

**Azərbaycanda 2 pasiyenti cərrahiyyə masasında dünyasını dəyişən Sirus Qoçqaninin diplomu və Azərbaycanda sertifikasiyadan keçməsi haqda yeni məlumatlar ortaya çıxıb. Onun əməliyyat götürdüyü və cərrahiyyə masasında dünyasını dəyişən Sona Vəliyeva Gürgünün ailəsinin nümayəndəsi, ictimai vəkil Samir Zeynalov bununla bağlı redaksiyamıza məlumat verib. Deyib ki, Sirus Qoçqaninin çalışdığı klinikada olub, oranın rəhbəri ilə görüşüb:**

"Ötən həftənin şənbə günü bir neçə jurnalistlə bərabər "Baku Medical Plaza"nın qarşısından çəkiliş etməyə getdim. Bunu görən mühafizəçilər mənə mane oldular. Sonra klinikanın digər bir məsul şəxsi mənə yaxınlaşaraq klinikanın direktoru Pərviz Şükürovun məni gözlədiyini qeyd etdi. Mən direktorun qəbuluna getdim. Ondan soruşdum ki, Sirus Qoçqaninin sertifikasiyası varmı? O isə əminliklə dedi ki, var və yanvara qədərdir. Amma bu barədə mənə rəsmi sənəd təqdim etmədi. Eyni söz həkimin diplomu ilə bağlı da deyildi. Lakin yenə də ortada heç nə yox".

**İctimai vəkil deyir ki, klinikada ümumiyyətlə onun istədiyi, ona maraqlı olan heç bir sənəd təqdim edilməyib:** "Nəticədə bu barədə direktor mənə bildirdi ki, bu həftənin bazar ertəsi mənə şifahi ya da yazılı məlumat verəcək. Telefon nömrəmi də götürdü. Hətta onu da bildirdi ki, Qoçqaninin iştirakı ilə 3 tərəfli görüşümüz olacaq. Bu gün (dünən-red.) cümə günüdür. Mən bu günə qədər ona bir neçə dəfə zəng vurmuşam, lakin məşğul olduğunu deyib. Bu gün (dünən-red.) yenə zəng vurdum və telefonda məni öncə tanımadığını dedi. Daha sonra isə tanıdı və bildirdi ki, mən özümdən böyük rəhbərliklə danışım sonra. Mən ona sual verdim ki bu həkim haqqında məlumat vermək üçün rəhbərliklə danışmağa nə lüzum var? Siz axı demişdiniz ki, məlumat verəcəm. Bu sözləri deməyim əsnasında o telefonu söndürdü və bir daha onunla əlaqə saxlaya bilmədim".

İctimai vəkil deyir ki, belə şübhəli hərəkətlər əsaslı iddialar irəli sürməyə imkan verir: "Ehtimal edirəm ki, onlar saxta sənədlər tərtib etmək üçün vaxt əldə etməyə çalışırlar. Həm həkim, həm də klinika buna görə susur. Sona Gürgün Vəliyevanın klinika ilə bağlanılan müqaviləsi də ortada yoxdur".

İctimai vəkil bu məsələlərlə bağlı hüquq mühafizə orqanlarının araşdırma aparmasına nail olacaqlarını bildirib. Bundan əvvəl isə Sirus Qoçqani əməliyyat masasında dünyasını dəyişən Sona Gürgün Vəliyevanın ölümü ilə bağlı olduqca ciddi etiraf edib. Sirus Qoçqaninin etirafı onun pasiyentinə əməliyyatdan əvvəl yalan danışmasını ortaya qoyub. Sona Vəliyeva Gürgünün ailəsinin nümayəndəsi, ictimai vəkil Samir Zeynalov bununla bağlı redaksiyamıza məlumat verib. Deyib ki, Sirus Qoçqani onunla yazışmasında Sona Gürgün Vəliyevanı aldatmasını, onu faktiki olaraq bu yolla əməliyyata razı saldığını qeyd edir.

Yada salaq ki, Sirus Qoçqaninin köməkçisi onun həyat yoldaşıdır. O, Samir Zeynalova hədə mesajları yollayır. Sirus Qoçqani isə özünün Azərbaycanda sertifikasiyadan nə vaxt keçməsi, şəhadətnamə alıb-almaması ilə bağlı sualları cavablandırmaqdan yayınır. Sona Gürgün Vəliyeva 2019-cu ilin mayında Sirus Qoçqaninin bıçağı altında, əməliyyat masasında dünyasını dəyişib. Belə aydın olur ki, Qoçqani ölkədə öz sahəsi üzrə tanınan həkimlərdən olan Sona Gürgün Vəliyevanı əməliyyata götürərkən prosesin həyat və sağlamlıq üçün tam təhlükəsiz olduğunu deyib. Tanınmış həkim aldadılaraq cərrahiyyə masasına götürülüb və nəticə dəhşətli olub.

"Baku Medikal Plaza"da baş tutan acı sonluqlu əməliyyatdan sonra Sona Gürgün Vəliyevanın yaxınları onun ölümündə plastik-estetik cərrah Sirus Qoçqanini, assistenti olan həyat yoldaşını günahlandırırlar. Digər tərəfdən, Sona Gürgün Vəliyeva Sirus Qoçqaninin bıçağı altından sağ çıxmayan ilk və sonuncu pasiyent deyil. 2017-ci ilin iyununda Sirus Qoçqaninin liposaksiya əməliyyatına götürdüyü 22 yaşlı model Leyla Oruclu da dünyasını dəyişmişdi. 2 ölüm faktı ortadadır və Sirus Qoçqani bu gün də fəaliyyətdədir. Odur ki, gələcəkdə oxşar olayların qeydə alınmayacağı ehtimalı da qalır. İşin acınacaqlı tərəfi odur ki, tibbi təhsilinin olub-olmaması bilinməyən Sirus Qoçqani bu gün də əlində bıçaq pasiyent qəbul edir...

❑ **E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 176 (7346) 24 avqust 2019

**AFFA-nın Məşqçilər Komitəsinin sədri Vaqif Sadıqov "Qarabağ"ın Avropa Liqasının pley-off mərhələsində dünən Şimali İrlandiyada "Linfild"ə qarşı keçirdiyi oyunla (2:3) bağlı Qol.az saytının suallarını cavablandırıb.**




# "Narahat olmayın, "Qarabağ" qrupa düşəcək" - Vaqif Sadıqov

***- "Qarabağ"ın məğlubiyyətini necə şərh edərdiniz?***

- Ağdam klubu rəqibdən qat-qat üstün oyun sərgiləyirdi. Ancaq yekun nəticə bizim xeyrimizə olmadı. Ona görə də çempionumuz cavab matçında mütləq qələbə qazanmalıdır və əminəm ki, qazanacaq da. "Qarabağ"ın qrup mərhələsinə vəsiqə qazanacağına inam böyükdür. Ancaq digər tərəfdən irad kimi deyə bilərəm ki, "Qarabağ" kimi hədəfi böyük olan komandaların bu cür komandalara nəinki məğlub olmağa, hətta onlardan qol buraxmağa da ixtiyarı yoxdur. Bizim komandamız səviyyə baxımından dəfələrlə rəqibdən üstün idi. Ümid edirəm ki, bu məğlubiyyətdən nəticə çıxarılacaq.

***- Rəqib 90 dəqiqə ərzində 3-4 hücum etdi və bunların 3-ü qolla nəticələndi. "Qarabağ"dakı hansı səhvlər bu qolların buraxılmasına səbəb oldu?***

- Oyun göstərdi ki, rəqibdən çox üstünük. İlk hücumdaca qapımızda qol gördük. Bu qolda komandamız müəyyən boşluqlar verdi. Belə boşluqların nəticəsində "Qarabağ" küncdən zərbə zamanı qapısında 2-ci qolu gördü. Rəqib üçüncü qolu da bizi əks hücumda yaxalayıb vura bildi. Amma ümumilikdə oyun komandamızın üstünlüyü şəraitində keçdi. Buraxılan boşluqlar hesabın bu cür olmasına gətirib çıxardı.

***- "Qarabağ"ın yeni transferləri barədə fikirləriniz necədir? Dünənki (srağagünkü-red.) matçda bu transferlərdən daha biri - Faysal Rerras da qol vurdu.***

- Əsas məsələ fərqlənmək deyil. Ümumilikdə "Qarabağ"ın hər il etdiyi transferlər özünü doğruldur. Bu il də biz bunun şahidi oluruq. Komandamız əlavə olaraq eyni mövqeyə iki oyunçu alaraq futbolçular üçün rəqabət imkanı yaradır. Bunun nəticəsi kimi meydana çıxan hər bir yeni futbolçu ən yaxşı keyfiyyətlərini ortaya qoymaqla komandanın xeyrinə çalışır. Dünən də biz bunun şahidi olduq. Faysal zəif təsir bağışlamadı və fərqlənməyi də bacardı. "Qarabağ"da hər bir mövqedə yerli və əcnəbi futbolçular arasında rəqabət var. Rəqabət olan yerdə isə komanda istədiyinə nail ola bilir, inkişaf edir. Mən dünənki (srağagünkü-red.) oyunu izləyəndə bir şeyə təəssüfləndim ki, "Qarabağ" Avropa Liqasının deyil, Çempionlar Liqasının pley-offunda "Ayaks" kimi rəqibə qarşı oynamalı idi. Heyif ki, alınmadı.

***- "Qarabağ"dan səfər matçında belə gözləntilər böyük idi. "Linfild" üzərində asanlıqla qələbə qazanacağını düşünənlər də çox idi. Bununla belə məğlub olduq və bundan sonra komandaya sosial şəbəkə üzərindən təzyiqlər artdı.***

- Mən belə şeyləri qəbul etmirəm. Biz bir şeyi başa düşməliyik ki, cütün taleyi iki oyunun nəticəsində həll olunur. İndidən demək olar ki, "Qarabağ" azarkeşlərimizin önündə qələbə qazanaraq qrupa vəsiqə qazanacaq. Ən vacibi odur ki, yekunda biz Azərbaycan çempionunu qrupda görək.

***- APOEL-lə oyundakı məğlubiyyətin "Linfild"lə matçda futbolçularımızda hansısa psixoloji təsiri qalmışdımı?***

- Deməzdim. Çünki "Qarabağ"da peşəkar insanlar çalışır. Peşəkar yanaşma olan yerdə isə mütləq bir çıxış yolu tezliklə tapılacaq. "Qarabağ"ımız uğurlu çıxışlarını davam etdirəcək.

***- Bakıdakı matçda tərəflərin şansını necə qiymətləndirirsiz? Ötən mövsümdə də "Qarabağ" Avropa Liqasının pley-off mərhələsində səfərdə Moldovanın "Şerif" klubuna məğlub olmuşdu, amma evdə 3 cavabsız qolla qalib gəldi.***

- Artıq siz mənim yerimə suala cavab verdiniz (gülür). Cavab oyununda ümumiyyətlə, "Linfild"in şansı yoxdur. Bir peşəkar kimi bunu deyirəm. Narahatlığa əsas yoxdur. Başqa cür ola bilməz. Hesab edirəm ki,"Qarabağ" hər matç baxımlı oyun sərgiləyir. Ümidvarıq ki, qrup mərhələsinə düşəndə də rəqibdən asılı olmayaraq ən yaxşı oyununu göstərəcək.

***- Cavab oyunu öncəsi "Qarabağ"a tövsiyələriniz nə olardı?***

- "Qarabağ" son illərdə Azərbaycan futbolunda tarixi işlər görüb. Bunun davamını görmək arzusundayam. İnanıram ki, "Qarabağ" bu mövsüm də qrup mərhələsinə vəsiqə qazanaraq hədəfinə çatacaq.

# Bərdədə faciə: qonşu olan oğlanla qız intihar etdi

**Ötən gün axşam saatlarında Bərdənin Qasımbəyli kəndində iki gənc intihar edib. Qafqazinfo xəbər verir ki, kənd sakini, 1990-cı il təvəllüdlü İlyasov Tural Xəqani oğlu özünü bıçaqlayıb. Bərdə Rayon Mərkəzi Xəstəxanasına çatdırılan gəncin həyatını xilas etmək mümkün olmayıb.**

Eyni vaxtda həmin kənddə yaşayan 2000-ci il təvəllüdlü Əliyeva Bahar Əhliman qız isə özünü asıb. İntihar edən şəxslərin Qasımbəyli kəndində qapıbir qonşu olduğu bildirilir.

Faktla bağlı araşdırma aparılır.



# Bakıda oğlan uşağına qarşı iyrənc hərəkət edən şəxsə ağır cəza

**Azyaşlı uşağa qarşı seksual xarakterli hərəkətlər edən şəxs hakim qarşısına çıxarılıb. Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində 1986-ci il təvəllüdlü Əbilov Elimdar İkram oğlunun cinayət işi üzrə məhkəmə iclası keçirilib.**

Hakim Azər Paşayevin sədrliyi ilə keçirilən məhkəmə iclasında hökm oxunub. Hökmə əsasən E.Əbilov 10 il müddətinə azadlıqdan məhrum edilib. İttihama görə, E.Əbilov 8 yaşlı oğlan uşağına qarşı seksual xarakterli hərəkətlər edib. O, məhəllədə oynayan azyaşlını aldadaraq naməlum istiqamətdə aparıb. Onun bu əməli nəzarət kameraları tərəfindən lentə alınıb. Əbilov əməlindən peşman olduğunu deyib. O, hadisəni törədən zaman içkili olub.

Qeyd edək ki, ona qarşı Cinayət Məcəlləsinin 150.3.3-cü (Seksual xarakterli zorakılıq hərəkətləri; təqsirkar şəxs üçün aşkar surətdə on dörd yaşına çatmayan şəxs barəsində törədildikdə) maddəsi ilə ittiham edilir.

❑ **İ.MURADOV, Musavat.com**

# "Nar"-ın abunəçi bazası sürətlə artmaqdadır

**"Nar", 2019-cu ilin 6 ayı ərzində əldə etdiyi nailiyyətlər barədə açıqlama edib. Mobil operatorun təqdim etdiyi tariflər və qiymətlərin sərfəli olması, baza stansiyalarının sayının sürətlə artımı, abunəçilərə göstərilən yüksəkkeyfiyyətli internet xidməti sayəsində "Nar"-ın abunəçi bazası çoxalıb. Belə ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə aktiv abunəçi bazası 13% artıb. Hazırda mobil operatorun istifadəçilərinin sayı 2,3 milyona yaxınlaşıb.**



Ötən yarım ilin nəticələrinə əsasən, "Nar" mobil şəbəkəsini daha da genişləndirməyə nail olub. Mobil operator 6 ay ərzində 490 yeni baza stansiyası quraşdırıb. Hazırda "Nar"-ın 4G baza stansiyalarının sayı 2140-ı, 3G baza stansiyalarının sayı isə 2700-ü ötüb. Bununla da "Nar" ölkədə ən geniş 4G şəbəkəsinə malik mobil operator olub. Aparılan şəbəkə təkmilləşmə işlərinin nəticəsi olaraq paytaxla yanaşı, regionlarda da "Nar" şəbəkəsi daha da gücləndirilib. Hazırda 53 region 4G baza stansiyası ilə təmin edilib.

Ölkə ərazisində yeni baza stansiyalarının sürətlə quraşdırılması sayəsində 4G istifadəçilərinin sayı 96% artıb. "Nar" abunəçiləri arasında smartfon iştifadəçilərinin sayı isə 17% çoxalıb. Ümumilikdə, mobil operatorun abunəçiləri arasında smartfon iştifadəçilərinin sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə regionlar üzrə 15%, Bakı üzrə isə 18% artıb.

Media nümayəndələrinin iştirakı ilə yarım ilin nəticələrinin açıqlandığı mətbuat konfransında "Azerfon"un baş icraçı direktoru Qunnar Panke bildirib ki, "Nar" 6 ay ərzində nəzərəçarpacaq nəticələr əldə edib: ""Nar" olaraq əsas hədəflərimizdən biri üstün müştəri məmnuniyyətinə nail olmaq və hər bir müştəriyə fərdi yanaşmanı yüksək səviyyədə təmin etməkdir. Azərbaycan mobil rabitə bazarında müşahidə olunan güclü raqabət mühitində biz müştəri yönümlü strategiyamızı uğurla davam etdirmişik və müştəri məmnuniyyətində artıma nail olmuşuq. Müştərilərə göstərdiyimiz yüksəkkeyfiyyətli xidmət sayəsində 2 il ərzində ilk dəfə olaraq müştəri loyallığı indeksi üzrə mobil operatorlar arasında "Nar" birinci olub".

"Nar", abunəçilərinə Çağrı Mərkəzləri, nar.az internet səhifəsi ilə yanaşı, sosial media vasitəsilə də yüksəkkeyfiyyətli və operativ müştəri xidmətləri göstərməkdə davam edir. Belə ki, son 6 ay ərzində mobil operatorun sosial şəbəkələri vasitəsilə abunəçilər tərəfindən 115 mindən çox müraciət daxil olub. Sosial şəbəkələr vasitəsilə daxil olmuş müraciətlərin 94,7%-i bir dəqiqə ərzində cavablandırılıb.

2019-cu ilin 6 ayı ərzində mobil operator ikiqat internetdən istifadə və daha çox ünsiyyət qurma imkanı verən "CavanNar" tarifini, eləcə də xaricə səyahət etmək istəyən abunəçiləri üçün sərfəli rominq paketləri təqdim edib.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Mobil operator şəbəkə keyfiyyətinin davamlı təkmilləşdirilməsi strategiyası çərçivəsində səs keyfiyyətinin nəzərəçarpacaq dərəcədə artımını və səsin təmiz ötürülməsini təmin edən "HD-Voice" *(High Definition Voice)* xidmətini təqdim edib. 2017-ci ildə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən "Nar" şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olub. Sınaqları test xidmətləri üzrə müstəqil beynəlxalq şirkət olan "P3 Communications" keçirib və sınaq metodologiyası əhatəli xidmətlər üzrə müştəri təcrübəsinə əsaslanıb.

**Fast food qida rasionumuzun ildən-ilə böyük bir hissəsini təşkil edir. Və özü ilə bərabər fəsadlarını da həyatımıza gətirir. Fast food "hazır yemək" olaraq adlandırılsa da, tam tərcüməsi "sürətli yemək"dir. Yəni müştərilər üçün bufet, restoranlarda və ya səyyar satıcıların təqdim etdiyi sürətlə hazırlanan və ya paket edilmək üzrə satılan yeməklər başa düşülür.**



# Fast food yeməkləri - ömrümüzü qısaldan ləzzət...

## Belə qidalanma növü həyatımızdan nələri aparır? Dietoloq: "Bu qidaların yanında enerji içkilərindən dı istifadə edirlər ki, bu da qəfil ölümlərə gətirə bilər..."

**Hamburger**in tarixi orta əsrlərə təsadüf edir. Çox adam fast-foodun ilk olaraq Amerikada ortaya çıxdığını düşünsə də, bu, belə deyil. Bir çox fast-food məhsulu yüzillər öncəsinin Avropasına təsadüf edir. 1598-ci il London araşdırmasında və 1840, eləcə də 1850 dönəmlərinin İngiltərə tarixinin anladıldığı dönəmlərdə də fast-food məhsullarından bəhs edilir.

**Romalılar tərəfindən fast-food növlü yeməklər istifadə edilirdi.** Hətta fast-food tərzindəki məhsulların tarixini daha da keçmişə apara bilərik. Bu gün sevərək yediyimiz hamburgerlər əslində Orta Şərq dönəmində Rusiyanın Baltıka bölgələrində, xüsusən də tatarlar olmaq üzrə bir çox qəbilə tərəfindən yeyilən bifşteksləridir. Tatarlar bu ləzzətli əti Hamburq limanında almanlara tanıdıblar, almanlar isə bu əti qızartdıqdan sonra soğan qataraq tükətməyə başlayıblar. Bununla yanaşı işi daha da geriyə götürərək miladdan önceki illərdə romalıların fast-food məhsulu olaraq qəbul edilən hamburger və pizza növlü yeməkləri yediklərini deyənlər də var.

### Hər şey ABŞ-da başlanıb?

1950-ci illərdə Amerikada qurulan fast-food növlü yeməklər satan firmalar bu sahədə o qədər böyüdülər ki, milyardlarla dollarlıq qazanc əldə edən, minlərlə şöbəsi olan qurumlar halına gəldilər. Bununla da avtomatik olaraq hamburger və pizza kimi fast-food növlərindən bəhs edilincə, ilk ağıla ABŞ-ın gəlməsi qaçılmaz oldu. Gündə 69 milyon nəfərə xidmət verən **"Mc Donalds"** bu sektorun liderliyini saxlasa da, onun arxasınca hamımızın tanıdığı **KFC** və **"Burger King"** kibi markalar gəlməkdədir.

**Fast-foodun nə qədər sağlam olması məsələsində dartışmalar davam edir.** Fast-food yeməklərinin insan sağlamlığına çox ciddi zərəri olduğu məsələsində illərdir davam edən bir dartışma var. Fast-food növü yeməklərin bir çox xəstəliyə səbəb olduğunu deyənlərin sayı heç də az deyil. Hətta bu mövzuda hazırlanmış bir sənədli film də var: **Morqan Spurlock** adlı bir sənədli film rejissoru tam bir ay boyunca bütün yemək saatlarını bir fast-food mağazasının məhsullarından yeyərək keçirir. Hardasa ölümlə burun-buruna gələn Spurlock bu təcrübəsini qeydiyyata alır və "Şişirt Məni" adlı bir sənədli filmi ictimaiyyətə təqdim edir.

### Hər şey qastritdən başlayır və insan cərrahın pasiyentinə çevrilir

Həkimlərin ümumiləşdirilmiş rəyi isə ondan ibarətdir ki, fast-food qidalarında - dönərlər, lahmacunlar, hamburgerlərdə və s. işlədilən ətlər yaxşı bişirilmir. Orada işlədilən yağların mənşəyi bəlli deyil, eyni yağda külli miqdarda qida hazırlanır. Belə qidaların strukturu dəyişir və onlar kanserogenə çevrilir. Bu cür qidaları qəbul etmək çox təhlükəlidir. Ətlərin yaxşı bişirilməməsi nəticəsində insanlar tez-tez bağırsağın müxtəlif helmintoz və başqa parazitar xəstəliklər ilə müraciət edirlər. Buraya lyambliоz, blastosistoz, exinokokkozları aid etmək olar ki, sonuncu ilk növbədə qara ciyərdə ciddi problemlər yaradır və insan artıq cərrahın pasiyentinə çevrilir.

Digər tərəfdən, fast-food yeməkləri mədənin və onikibarmaq bağırsağın selikli qişasına ciddi zədə yetirir. Hər şey adi qastritdən başlayır və xoralara, qanaxmalara gətirib çıxarır və nəticədə pasiyent cərrahın qəbuluna düşməli olur.

Dünyada olduğu kimi, Azərbaycanda da ən geniş yayılmış xəstəliklərindən biri qida borusu xərçəngidir. Belə ki, qida borusu xəstəliklərinin 30-40 faizində bu problemə rast gəlinir. İldə hər 100 min nəfərdən 5-7-də bu xəstəliyə rast gəlinir. Qadınlara nisbətən kişilərdə qida borusu xərçənginə rast gəlmə ehtimalı 2-3 dəfə daha yüksəkdir. Bu da kişilərin içki, siqaret və s. kimi zərərli vərdişlərə daha çox meylli olmasından irəli gəlir. Bundan əlavə, fast-food qidaları da bu xəstəliyin yaranması riskini artırır. Adətən 40-60 yaş arası insanlarda rast gəlinən bu xəstəliyin bəzi hallarda 40 yaşın altında insanlarda da görünmə ehtimalı var.

### Hamilə qadın fast food yeyirsə...

Fast food yeyən hamilə qadın nəinki özünü, hətta gələcəkdəki üç nəslin sağlamlığını təhlükə altına qoyur. Araşdırmaya görə, hamiləykən fast-food yeməklərlə bəslənən qadınların uşaqları, nəvələri və nəvələrinin uşaqlarında piylənmə, ürək və şəkər xəstəliklərinə tutulma riski artır. Hətta həmin nəsildən olan uşaqlar sağlam qidalansalar belə təhlükədən qaçmaq mümkün olmur.

Buna görə də gələcəyimizi təhlükə altına salmamaq üçün mütəxəssislər hamilə qadınlara mütləq və mütləq sağlam qidalanmanı məsləhət görürlər.

### Fast food yeyirik və kökəlirik.. niyə?

Heç kimə sirr deyil ki, fast-food birbaşa artıq çəki yaradır. Üstəlik, burada böyük çəkilərdən söz gedir. Fast-food niyə artıq çəki yaradır? Bütün həkim və dietoloqlar iddia edirlər ki, fast-foodun ziyanı onun çox qəbulu ilə daha da artır. Bu səbəbdən müntəzəm fast-food qəbulu arzuolunmazdır.

Əsas məsələ ondadır ki, bu tip qidalar yüksək kalorili, yüksək dərəcədə yağlı və az vitaminli olurlar. Əsasən də, bu, hamburqerlərə aiddir. İş ondadır ki, bu tip restoranlar müştəriləri daim cəlb etmək üçün qidaları çox yağlı və bol şəkərli edirlər. Hətta sağlam qida altında satdıqları salatlarda belə dadlandırıcılardan istifadə edirlər ki, bunları da sağlam qida adlandırmaq çətindir.

Fast-foodun ziyanı barəsində hər kəs bilir, lakin bu restoranların satışı ildən-ilə artır. Ən əsas mənfi nəticə kimi artıq çəki və piylənmə qeyd olunur. Hamburqer, free, südlü kokteyllər, qızardılmış toyuq dadlı olmaqla yanaşı olduqca kalorilidirlər. Misal olaraq, ən populyar olan çizburqer tərkibində 540 kilokalori və 29 qr yağ cəmləşdirir, əlavə olaraq free də qəbul edilərsə - 500 kilokalori və 25 q yağ deməkdir.

Fast-food insan genlərini dəyişir!

Bizim immun sistemimiz fast-food qidalarını bakterial infeksiya kimi qəbul edir, bu qidalar "epigenetik dəyişikliklər"ə yol açır. Bu nəticəyə Bonn Universitetinin genetik alimləri gəliblər.

Siçanlar üzərində aparılan təcrübədə bir neçə siçan "qərbsayağı pəhriz"ə otuzdurulub. Onlara yağı, şəkəri, duzu bol olan fast-foodlar verilib, meyvə, tərəvəz isə verilməyib. 1 aydan sonra onların qanında təhlükəli infeksiyaya yoluxmada olduğu kimi immun hüceyrələri yaranıb. "Sağlam olmayan qidalanma" siçanların qanında qranulosit və monositlərin sayını artırıb. Alimlər siçanların orqanizmində "fast-food ötürücüsü" adlı bir gen təyin ediblər ki, bu gen zərərli qidalara güclü reaksiya verir.

Ən maraqlı fakt isə bu pəhrizin immunitetə təsiri olub. Fast-food siçanların genetik informasiyanı qoruyub saxlamaq qabiliyyətini dəyişib. Hüceyrələrdəki DNK sapları adətən zülal ətrafında dolanmış kimi olur. Amma qeyri-sağlam qidalanmadan sonra bu saplar öz strukturunu dəyişərək, bir neçə sapın topadan ayrılıb ayrıca struktur kimi qalmağa can atıb. Belə mənzərə adətən orqanizmdə iltihabi proses başlayanda baş verir.

Siçanlar 1 aydan sonra adi qidalanmalarına keçdikdən sonra qanda DNK-nın mənzərəsi dəyişib, iltihab prosesi əlamətləri yoxa çıxıb, amma immunitetdə epigenetik dəyişikliklər hələ də qalmaqda davam edib. Bu təcrübə onu göstərib ki, fast-food və zərərli qidalanmaya orqanizmin reaksiyası bir iltihabi prosesə olan reaksiya kimidir. Orqanizm bu qidanı təhlükə və xəstəlik kimi qəbul edir, dərhal qanda dəyişikliklər baş verir, "döyüş hazırlığı" siqnalı verilir. Əgər insan bu zərərli qidalardan əl çəkib, sağlam qidalanmaya keçərsə, orqanizm yalnız 2-3 aydan sonra bunu başa düşüb, bu prosesləri ləğv edə bilər. Amma insan uzun müddət - uşaqlıqdan yaşlanana kimi fast-food yeyərsə, onun qanında və genetikasında bu dəyişikliklər geridönməz hala çevrilər, burdan da II tip şəkərli diabet, ürək, qan-damar sistemində problemlər başlayacaq.

### Psixoloqlar: "Artıq yeməyin hazırlanmasını gözləməyə səbr yoxdur"

Psixoloqlar isə hesab edir ki, bu sayaq qidaların qəbulu psixoloji səbəblərdən asılıdır. Belə ki, özünü qoruma və nəsil artırma instinkti ilə hərəkət edən insanlar eyni zamanda özünü qorumanın həzz alma fazasından da yararlanır. Qidalanma zamanı da insanlar əvvəlki dönəmlərlə müqayisədə səbr etmək istəmir.

Tələsik qidalanma, 5 dəqiqəyə hazır olsun, onunla qidalanmaq var. Yəni bu situasiyada insan səhhətini düşünmür. Məsələn, vacib olan bir şey yeyim, təzədən fəaliyyətimi davam etdirim. "Fast food"u istehsal edən şirkətlər də məhz bu psixoloji məqamı nəzərdə tutur, belə qidaların istehsalı ilə məşğul olurlar. Bu dünyanın hər yerində belədir. Sadəcə, burada fərdi gigiyenanın, fərdi sağlamlığın qorunmasından söhbət gedir. Bu da insanın özünə buraxılır.

**Psixoloqlar eyni zamanda hesab edir ki, insanlar daha çox TV-lərdə, filmlərdə gördükləri mənzərələri də öz həyatlarında təkrarlamaq istəyirlər.** Məsələn, fast food şəbəkələrini reklam edən verilişlər, filmlər təhrikedici xarakter daşıyır.

### Dietoloq Leyla Zülfüqarova: "Fast foodlara milli alternativlər yaratmalıyıq"

**Dietoloq Leyla Zülfüqarova** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, ümumiyyətlə, dünya ölkələri ilə müqayisədə Azərbaycan fast foodan istifadəyə görə birinci sıralarda deyil. Müsahibimizin sözlərinə görə, Amerika və Avropa ölkələrində bu qidalanma növünə daha çox əhəmiyyət verilir: "Amma son illər müəyyən yaş qrupunda bu qidalanma növündən istifadə edənlər çoxalıb. Dönər, şaurma, tantuni - insanlar üçün daha əlçatan qida növüdür. Həm tez hazırlanmasına, həm də qiymətinə görə. Tələbələr, məktəblilər, gənc ailələr onların əsas istifadəçiləridir ki, bu da 10-40 yaş arası aktiv qrup deməkdir. Üstəgəl, bu qidaların yanında enerji içkilərindən istifadə edirlər ki, bu da qəfil ölümlərə səbəb olur. Təbii ki, buna SOS deməliyik".

**Müsahibimiz hesab edir ki, bu cür qidalanmanın qarşısını almaq üçün alternativ qidalanma ortaya qoyulmalıdır. Dietoloqun dediyinə görə, Azərbaycanda istirahətin aktiv forması təbiətdə bol-bol yeməkdir**: "Bəzən də elə istirahət zamanı fast foodlardan çox istifadə edilir. Bizsə təklif edirik ki, bu zaman alternativ olaraq milli fast foodlarımızdan istifadə edək. Məsələn, az yağda hazırlanmış qutablar doğru alternativdir. Hətta yağsız halda bişirilməsi daha ideal olar. İkincisi, çörək içi sendviçlərin ev şəraitində hazırlanmasına üstünlük verilməlidir. Tostlar - çörək arası pendirlər uşaqlar üçün yaxşı alternativdir. Biz hər nə qədər insanlara daha çox meyvə-tərəvəz yeyilməsi ilə bağlı çağırışlar etsək də, onlar kalori dəyəri çox olan qidalara üstünlük verirlər. Buna görə də ən uyğunu balıq-çörəkdir. Biz "əti çörəklə yeməyin" desək də, müəyyən yaş qrupu üçün bu təklif keçərli olmur, onlar bunu həyata keçirmirlər. Amma indiki halda çörək-balıq daha doğrudur. Nəzərə alsaq ki, çörək-balığın hazırlanması zamanı işlənmiş ət məhsullarından istifadə edilmir, üstəlik, kalori dəyəri də aşağıdır, bu halda onu uyğun alternativ hesab edə bilərik. Təbii ki, düzgün hazırlanma yerində və qaydalara uyğun olarsa. Təzə tərəvəzlərdən də istifadə etmək olar".

**Dietoloqun fikrincə, alternativlər yerinə qoyularsa, fast food asılılığından qurtulmaq mümkündür. L.Zülfüqarova deyir ki, vaxtilə insanlar daha çox qəlyanaltı zamanı peraşkilərə üstünlük verirdi. Onların satışını həyata keçirən şirniyyat evləri vardı:** "Amma tələbat get-gedə azaldı. İndi çayxanalar azalmaqda, koffe house-lar artmaqdadır. Çünki indi şəhərdə kofe içənlər çoxalır. Amma tələbatdan asılı olaraq təbliğatı qurmaq və düzgün yönləndirmə etmək lazımdır".

**Sevinc TELMANQIZI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT

Son səhifə

N 175 (7345) 24 avqust 2019

## Bunları bilirsinizmi?

* Dünyada baş verən 7 oğurluqdan yalnız birinin üstü açılır.
* Dünyada hər 2 dəqiqədən bir zəlzələ baş verir.
* Palıd qozasının yetişməsi üçün 50 il vaxt lazımdır.
* Çirkli qar təmiz qardan tez əriyir.
* Arıların 5 gözü olur.
* Tarixdə ilk odekolon taun xəstəliyinə qarşı profilaktik vasitə kimi istifadə edilib.
* Məşhur nağıl yazarı Hans Xristian Anderson demək olar ki, bir sözü belə savadlı yaza bilmirmiş.
* Bazar ertəsi günləri 25% bel travması və 33% ürək tutması halları daha çox baş verir.
* Hər gün dünyada orta hesabla 33 yeni məhsul buraxılır, bunların 13-nü isə oyuncaqlar təşkil edir.
* Orta hesabla insan həyatının iki həftəsini işıqforun rəngini dəyişməsini gözləməyə sərf edir.
* İnsan çay içməyə daha tez vərdiş edir, nəinki narkotikə.
* Tualet kağızı 1857-ci ildə icad edilib.
* Ağcaqanadları yenicə banan yemiş insanın ətri cəlb edir.
* Orta statistik hesabla bankomat il ərzində 250 dollar səhv hesablayır - müştərilərinin xeyrinə.
* İl ərzində insan qabırğası 5 milyon dəfə hərəkət edir.
* ABŞ əhalisinin yalnız 55%-i Günəşin ulduz olduğunu bilir.
* Son 4 min il ərzində insan hər hansı bir yeni heyvan növünü əhliləşdirməyib.
* Normal insanın yuxuya getməsi üçün orta hesabla 7 dəqiqə vaxt tələb olunur.
* Xokkey şaybasının atılma sürəti saatda 160 km çata bilər.

# Arıqlamaq istədilər, eybəcərləşdilər



**2 il əvvəl Ceykobun çəkisi 152,4 kiloqram idi. İndi isə o arıqlayıb və 75 kilo olub. Amma Ceykob arıqladığına əsla sevinmir. Onun bədəninin müxtəlif yerlərindən dəri sallanır, əzələləri jele təsiri bağışlayır. İngiltərənin Mançester şəhərində yaşayan 29 yaşlı Ceykob Malliqan sərt pəhriz və gündəlik məşqlər nəticəsində izafi çəkisindən qurtulsa da, yanlış addımlar atdığını etiraf edir. Onun çəkisi azalıb, mütəxəssis rəhbərliyi olmadan edilən məşqlər sonucunda dərisi sallanıb.**

Britaniyanın Channel 5 telekanalındakı "Botched Up Bodies" proqramında bu axşam Ceykobla yanaşı, onun kimi şəxslərdən, yeni izafi çəkidən qurtulmaq üçün pəhriz saxlayan və məşq edən, amma vücudlarını daha da pis edən şəxslərdən bəhs olunacaq. Belə şəxslərdən biri də 6 uşaq anası Syu MakManusdur. Syu da kökdü, tosqundu. Onun 137 kq çəkisi vardı.

## 9 yaşlı əkizlər 6 ay evdə tək yaşayıblar



**Amerikada 9 yaşlı əkizlər 5 ay boyunca evdə tək yaşayıblar. Bu barədə lenta.ru saytı CNN kanalına istinadən yazıb.**

KİV-in yazdığına görə, uşaqların valideynləri ötən ilin iyulunda Nigeriyaya gedib, onlara baxmağı isə uşaqların əmisi Qiobari Aturudan xahiş edilib. Əvvəlcə kişi söz verib ki, qardaşının evinə köçəcək. Amma 5 ay ərzində onlara həftədə cəmi 1 dəfə baş çəkib. Bu müddət ərzində isə uşaqlar daha çox hazır yeməklərə üstünlük veriblər. Onlar deyiblər ki, Aturu onlara səhərlər müstəqil oyanmağı, məktəbə getməyi və avtobusa gecikməməyi tapşırıb. Polislər isə bu barədə məktəb işçiləri vasitəsilə xəbər tutublar.

Əkizlərin yaşadığı evə baş çəkəndən sonra hüquq-mühafizə orqanı əməkdaşları Aturunu həbs ediblər. Ona qarşı uşaqların həyatını təhlükə altına salmağa görə ittiham elan edilib. Kişi polisə deyib ki, qardaşı uşaqlarına öz telefon nömrəsini verib ki, hər hansı təhlükə halında onunla əlaqə saxlasınlar. Amma uşaqlar da bildirib ki, onların evində telefon işləmir. Uşaqlarının yarım ildir ki, evdə təkbaşına yaşadığını öyrənən valideynlər dərhal Nigeriyadan geri qayıdıblar.

## Televizor sosial münasibətlərə mane olur



**İngiltərənin məşhur psixoloqlarından olan Aric Siqman valideynlərə məsləhət görüb ki, uşaqların televizora baxdıqları saata müəyyən məhdudiyyətlər gətirsinlər. ttp://www.haberturk.com/sag-lik/etiket/ingiltereOnun dediyinə görə, yaşı 3-dən aşağı olan uşaqlar isə ümumiyyətlə televizora baxmamalıdır. Sigman deyib ki, kompüter, "ağıllı" telefonlar, habelə televizor şişmanlıq, ürək xəstəliyi və diabet riskini artırır:" Bunların xaricində daim ekran qarşısında olmaq ciddi psixoloji pozğunluqlara və diqqət dağılmasına da səbəb olur.**

Psixoloq onu da deyib ki, ekran başında keçirilən müddət uşaqların sosial münasibətlər qurmasına neqativ təsir göstərir. Belə ki, televizordan əlavə, uşaqlar 5 ayrı ekranın hücumuna məruz qaldıqları üçün beyinləri yüklənir. Bundan başqa, psixoloq televizoru da "elektrik dayə" adlandırıb.

## Məhkəmə atını almasın deyə... kasib yedi



**Novosibirskin Karasuks rayonunda yaşayan bir kişi Orlik ləqəbli atını yeyib. Buna səbəb kişinin öz atını məhkəmə nəzarətçilərinə vermək istəməməsi olub. Daha öncə məhkəmə tərəfindən ata həbs qoyulubmuş.**

Novosibirsk sakini 18 min rubl məbləğində olan borcunu ödəyə bilmədiyi üçün bu aqibətlə üzləşib. Atı borcunu ödəyənə qədər sahibinin yanında saxlamağa icazə veriblər. Amma sonuncu dəfə adı açıqlanmayan at sahibinin yanına gələn məhkəmə nəzarətçiləri sonuncunun "atı kasib yemişəm" etirafı ilə qarşılaşıblar. Qanunlar heyvan sahibinə qarşı cinayət işi açılmasına və həbs olunasına imkan verir. Son məlumatlara görə, sahibi son nəticədə borcunu ödəyib. Amma onun heyvanı kasib yeməsi 2 ilə qədər azadlıqdan məhrum olunması ilə nəticələnə bilər. Sahibi isə etiraf edib ki, o, sevimli atını borc ucbatından məhkəmə nəzarətçilərinə vermək əvəzinə onu kasib yeməyi tərcih edib.

## Saqqıza görə arvadını boşadı



**Hindistanın Uttar-Prade ştatının Lakxnau şəhərində bir kişi arvadından saqqıza görə ayrılıb. Bu barədə "Daily Mail" nəşri xəbər verib. Sayed Rəşid və onun 30 yaşlı arvadı Simmi 19 avqustda məhkəmə dinləmələrinə qatılıb. Kişi və onun qohumlarına qarşı cehizə görə məhkəmə işi açılıb. Qadın vəkili ilə söhbət edəndə əri ona saqqız təklif edib. Qadının etirazı ərini təbdən çıxarıb və 3 dəfə "talaq" ("boşan") deyib. İslam qaydalarına görə, bu, onun 2004-cü ildən evli olduğu arvadı ilə boşanması mənasını daşıyırdı.**

Rəşidə gəlincə, onu 3 ilə qədər həbs və ya cərimə gözləyir.

## Yuxunu 5 dollara satın alırlar



**Yaponiyada yorğun və yuxu həsrətində olan şəxslərin yatması üçün yuxu otaqları istifadəyə verilib. Otellərdən fərqli olaraq, insanlar bu otaqlarda bir və ya bir neçə saat qalaraq həmin müddətin pulunu ödəyirlər. Yuxu otaqlarına müraciət edənlərin böyük əksəriyyətini evində azyaşlı uşağı olan şəxslər təşkil edir. Onlar gecə saatlarında yuxuya həsrət qaldıqları və ofisdə də yata bilmədikləri üçün sözügedən xidmətdən maksimum istifadə edirlər. Bir saatlıq yuxu otağının məbləği 5 dollardır. Otaqlarda həzin musiqi, rahat atmosfer var. Hətta orada müştərilər bəlli saatdan sonra onları oyatmaq üçün xidmət sahibinə müraciət də edirlər. Bunun üçün əlavə 1 dollar məbləğində vəsait ödəmək lazımdır.**

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

Lisenziya N: B 114
SAYI: 3.050

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.